RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 183 (9638) 27 avqust 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycan türk dövlətlərinin birləşdirici gücünə çevrilib



Türk dövlətləri ilə münasibətlərin inkişaf etdirilməsi respublikamızın xarici siyasətinin əsas istiqamətlərindəndir. Bu baxımdan Özbəkistan, Qazaxıstan, Qırğız Respublikası, Türkiyə və Türkmənistanla münasibətlər bütün sahələrdə geniş və hərtərəfli olmaqla yanaşı, həm də özünəməxsusluğu ilə fərqlənir. Çünki xalqımız bu dövlətlərin xalqları ilə ortaq dəyərləri, türk soyunu bölüşür.

Xüsusilə qeyd edilməlidir ki, son onilliklərdə türk dövlətləri arasında əlaqələrin daha da gücləndirilməsinin, onların bu istiqamətdə səfərbər olmalarının, təşkilatlanmalarının səbəbkarı məhz Azərbaycandır. Hazırda türk dövlətlərini birləşdirən Türk Dövlətləri Təşkilatının təməli 15 il əvvəl - 2009-cu ildə Naxçıvanda qoyulub. Təşkilatın məqsəd və vəzifələri üzv dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviqi, bütün sahələrdə çoxtərəfli və ikitərəfli əməkdaşlığın gücləndirilməsi və sairdir.

Ötən onilliklər ərzində Azərbaycan türk dövlətləri arasında əlaqələrin daha da dərinləşməsinə layiqli töhfələr verib. Azərbaycan türk dünyasının yeganə dövlətidir ki, həyata keçirdiyi iqtisadi layihələrlə yalnız öz inkişafını təmin etmir, həm də türk dövlətlərinin iqtisadi əməkdaşlığının güclənməsinə xidmət edir, onların qlobal iqtisadi proseslərdə mövqelərini möhkəmləndirir. Məsələn, Azərbaycanın ərsəyə gətirdiyi Bakı-Tbilisi-Qars dəmir yolu xətti yalnız Asiyanı Avropa ilə birləşdirən nəhəng infrastruktur deyil. Bu həm də Azərbaycandan keçməklə Orta Asiyadan Türkiyəyə qədər türk dünyasının ticarət dövriyyəsini yüksəldən böyük bir iqtisadi imkandır.

Azərbaycanın ərsəyə gətirdiyi enerji layihələri də bütün türk dünyasını birləşdirir, onların qlobal bazarlara çıxış imkanlarını artırır. Belə ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri və "Cənub qaz dəhlizi" Orta Asiyanın türk dövləti üçün də hasil etdikləri karbohidrogen ehtiyatların ixracı baxımından yeni imkan deməkdir. Eyni zamanda Türkiyə də Azərbaycanın təşəbbüsləri ilə yaranan bu imkanlardan yararlanaraq özünün enerji təhlükəsizliyini möhkəmləndirir.

→ 6

## Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Bibiheybət ziyarətgah kompleksini ziyarət edib



**Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva avqustun 26-da Bibiheybət ziyarətgah kompleksini ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, VII əsrin yadigarı olan Bibiheybətdə Peyğəmbər nəslinin dörd nümayəndəsi uyuyur.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri 2008-ci ildə Bibiheybət ziyarətgah kompleksinin əsaslı yenidənqurmadan sonra açılışında iştirak ediblər.



## Birinci vitse-prezident Mehriban Əliyeva Heydər Əliyev Fondunun uşaqlar üçün təşkil etdiyi şənlikdə iştirak edib



Avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və fondun vitse-prezidenti Leyla Əliyeva valideyn himayəsindən məhrum olmuş və xüsusi qayğıya ehtiyacı olan uşaqlar, həmçinin şəhid övladları üçün fond tərəfindən keçirilən əyləncə və istirahət proqramında iştirak ediblər.

→ 2

## Birinci vitse-prezident Mehriban Əliyeva valideyn himayəsindən məhrum olmuş və xüsusi qayğıya ehtiyacı olan uşaqlarla bağlı video paylaşıb



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında valideyn himayəsindən məhrum olmuş və xüsusi qayğıya ehtiyacı olan uşaqlarla birgə videosunu paylaşıb.

## Bakı iqlim dəyişikliyi ilə mübarizədə dünyanı həmrəyliyə səsləyəcək




Bəşəriyyəti təhdid edən qlobal iqlim dəyişikliyi ilə mübarizədən qalib ayrılmaq tək bir ölkənin bacaracağı, nailiyyət əldə edə biləcəyi iş deyil. Bunun üçün bütün ölkələrin həmrəyliyi və üzərilərinə düşən öhdəliyi yerinə yetirmələri olduqca vacibdir. Bu məqamda xüsusilə qeyd etmək lazımdır ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyaları (COP) böyük əhəmiyyət daşıyır. Hər il dünya ölkələri bir araya gələrək planetdə canlı aləmi təhdid edən bəlaya qarşı effektiv mübarizə üçün müzakirələr aparır, təkliflər irəli sürür, öhdəliklər müəyyən edirlər. Hər il bir ölkədə keçirilən COP tədbirlərinə bu il Azərbaycan evsahibliyi edəcək. Sayca 29-cu sessiyanın keçiriləcəyi Bakı şəhəri təxminən iki həftə ərzində iqlim dəyişikliyi ilə mübarizədə həmrəylik üçün mühüm platforma rolunu oynayacaq.

Azərbaycan Texniki Universitetinin Enerji effektivliyi və yaşıl enerji texnologiyaları kafedrasının müdiri Ramiz Kəlbiyev AZƏRTAC-a bildirib ki, qlobal dünyanın tərkib hissəsi olaraq iqlim dəyişmələrinin fəsadları ilə üzləşən Azərbaycanın belə mötəbər tədbirə evsahibliyi etməsi heç də təsadüfi deyil.

→ 9

## Söz azadlığına növbəti zərbə



Pavel Durovun həbsi insan hüquqlarına və söz azadlığına zərbədir. Amma kolonializm, müstəmləkəçilik siyasətindən əl çəkə bilməyən Fransaya da bu yaraşır. Bir az əvvəl başa çatan "Paris -2024" Yay Olimpiya Oyunlarından öncə jurnalistləri təqib edən, onları həbsə alaraq casusluqda ittiham edən bu ölkə yenə də çirkin əməllərlə məşğuldur.

Bəli, "Teleqram"da bır sıra məqamlar narahatedicidir. Amma insan hüquq və azadlıqlarına hörmət, biznes prinsiplərinə riayət olunması tələbi belə repressiv metodlarla tənzimlənməməlidir. Ən azından Qərb özünün bəyan etdiyi prinsiplərə sadiqlik nümayiş etdirməlidir. Bu olmayınca, ABŞ, Aİ hər hansı bir ölkədə bu və ya digər hadisəyə demokratiya və insan hüquqları kontekstində münasibət bildirməkdə haqsız olacaq.

→ 8

# Birinci vitse-prezident Mehriban Əliyeva Heydər Əliyev Fondunun uşaqlar üçün təşkil etdiyi şənlikdə iştirak edib
















*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və fondun vitse-prezidenti Leyla Əliyeva uşaqlarla söhbət edib, onların təşkil edilən bu şənliklə bağlı fikirləri ilə maraqlanıb, şəkillər çəkdiriblər. Uşaq evlərinin, Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin və inteqrasiya təlimli internat məktəbinin sakinləri təəssüratlarını bölüşüb, burada yeni dostlar qazandıqlarını söyləyib, iştirak etdikləri oyunlar, əyləndikləri attraksionlar barədə danışıblar.

Xəzərin sahilində yerləşən "Dalğa Beach" istirahət məkanında təşkil olunan tədbir çərçivəsində Birinci vitse-prezident Mehriban Əliyeva və Leyla Əliyeva uşaq evlərində və internat məktəblərində tərbiyə alan uşaqların əl işlərindən ibarət sərgi ilə də tanış olub, onlarla birgə rəsm çəkiblər. Uşaqlar çəkdikləri rəsm nümunələrini Mehriban xanım Əliyevaya hədiyyə ediblər. Tədbir zamanı Mehriban xanım Əliyeva bu gün doğum günlərini qeyd edən şəhid övladları və uşaq evinin sakinləri ilə də görüşüb, onları təbrik edib.





İnteqrasiya təlimli internat məktəbinin sakinləri təəssüratlarını AZƏRTAC-la bölüşüb, burada yeni dostlar qazandıqlarını söyləyiblər.

2 saylı Uşaq Evinin 9 yaşlı sakini Rəvanə Cümşüdova şənliyin çox maraqlı keçdiyini bildirərək deyib: "Bura çox maraqlıdır, çoxlu yeni dost qazandım. Hər kəsə təşəkkür edirəm".

1 saylı Uşaq Evinin sakini, 8 yaşlı Dinara İsgəndərova Lənkərandan Bakıya gəldiyini vurğulayaraq bildirib: "Şənliyə bacımla birlikdə qatılmışıq. Əziz və dəyərli Mehriban xanım, dəstəyiniz üçün təşəkkür edirik".

2 saylı Uşaq Evi Sosial Xidmət Müəssisəsinin sakini Ayxan İbrahimov da təəssüratlarını bölüşərək qeyd edib: "Bu gün mənim üçün çox xoş oldu, uşaqlarla çox əyləndik. Təşkilatçılara minnətdarlığımı bildirmək istəyirəm. Mən 6-cı sinifdə oxuyuram. Böyüyəndə karate üzrə çempion, həmçinin idman müəllimi olmaq istəyirəm".

Əkiz qardaşlar - 8 yaşlı Behbud və Davud İsmayılzadələr yaxşı əyləndiklərini vurğulayıblar. Riyaziyyat və təsviri incəsənəti sevərək öyrəndiklərini deyən əkizlər burada maraqlı rəsmlər çəkdiklərini bildiriblər.

İsti yay günündə uşaqlar hovuzda doyunca əylənib, animatorların iştirakı ilə rəqs edib, rəsm, oyun, "Face Art" və səmərəli istirahətləri üçün ayrılmış digər zonalarda müxtəlif əyləncələrə qoşulub, bacarıqlarını nümayiş etdiriblər.

Uşaqlar birgə nahar süfrəsi arxasında növbəti sevincli anlar yaşayıblar.

Birinci xanım Mehriban Əliyeva 26 avqustda doğum günü olan uşaqlar üçün tort kəsərək onlara təqdim edib.

Balacaların sevimli qəhrəmanlarını canlandıran personajlar şənlik iştirakçılarında unudulmaz həyəcan hissləri doğurublar. Səhnəciklər, oynaq, şux mahnılar, rəqslər bayram tədbirini daha da rəngarəng edib.

Tədbirlərin yekununda unudulmaz istirahət günündən xatirə olaraq hər bir uşağa Heydər Əliyev Fondunun hədiyyələri təqdim edilib.

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə şəhid övladları üçün tədbir keçirilib

**Avqustun 26-da torpaqlarımızın işğaldan azad edilməsi uğrunda mübarizədə qəhrəmancasına həlak olmuş şəhidlərimizin övladları üçün Heydər Əliyev Fondunun təşkilatçılığı və "Dəniz Mall"un dəstəyi ilə tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, şəhidlərimizin bizə əmanəti olan övladları həmin məkanda təşkil edilən əyləncələrdən zövq alıb, müxtəlif oyun aparatlarında, kartinq, boulinq, leqo meydançası və digər əyləncə məkanlarında oynayıb, rəqslərə qoşulublar.

Uşaqlar bu günün təəssüratını birgə nahar süfrəsi arxasında paylaşıblar.

"Dəniz Mall"da keçirilən tədbirlə bağlı təəssüratlarını AZƏRTAC-la bölüşən şəhid Elnur Xəlilovun qızı Mələk Xəlilova burada çox əyləndiyini söyləyib. O, belə gözəl tədbirə qatıldığı üçün özünü çox sevincli hiss etdiyini deyib.

Şəhid Qara Balakişiyevin qızı Xədicə Balakişiyeva isə bildirib: "Bura mənim çox xoşuma gəldi. Dostlarımızla gözəl vaxt keçirdik. Maraqlı gün oldu. Buradakı attraksionlar çox əyləncəlidir".

Bu gün çox sevincli olduğunu söyləyən şəhid Şəhriyar Quliyevin oğlu Camal Quluzadə isə qeyd edib: "Burada olan bütün uşaqlar kimi, mən də çox əyləndim, gözəl bir gün keçirdik. Dostlarımla birlikdə yaxşı istirahət etdik. Bu anları heç vaxt unutmayacağam. Hamıya təşəkkür edirəm".

Tədbirlərin yekununda gözəl istirahət günündən xatirə olaraq hər bir uşağa Heydər Əliyev Fondunun hədiyyələri təqdim edilib.

Qeyd edək ki, Heydər Əliyev Fondunun gördüyü işlər sırasında valideyn himayəsindən məhrum, eləcə də xüsusi qayğıya ehtiyacı olan uşaqların, həmçinin şəhidlərimizin övladlarının diqqətdə saxlanılması, onların hərtərəfli qayğı ilə əhatə edilməsi xüsusi yer tutur. Fond uşaqlar üçün mütəmadi olaraq tədbirlər keçirir, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində səylərini əsirgəmir.










## Heydər Əliyev Fondu Gəncə şəhərində uşaqlar üçün tədbir təşkil edib




**Avqustun 26-da Heydər Əliyev Fondu xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün şənliklər təşkil edib.**

AZƏRTAC xəbər verir ki, əyləncə tədbirlərindən biri Gəncədəki 4 saylı Uşaq Evi Sosial Xidmət Müəssisəsində keçirilib. Şənlikdə DJ-lərin, animatorların iştirakı ilə müxtəlif əyləncə və şou proqramlar təqdim edilib, maraqlı müsabiqələr, idman estafetləri və oyunlar keçirilib.



## Heydər Əliyev Fondu Şəkidə xüsusi qayğıya ehtiyacı olan uşaqlarla birgə




**Avqustun 26-da Heydər Əliyev Fondunun uşaqlar üçün keçirdiyi növbəti şənliyin ünvanı Şəki şəhəri olub.**

AZƏRTAC xəbər verir ki, fondun Şəkidə 6 saylı Uşaq Evi Sosial Xidmət Müəssisəsində təşkil etdiyi şənlikdə azyaşlılar və yeniyetmələr müxtəlif oyunlar və müsabiqələr vasitəsilə bacarıq və qabiliyyətlərini nümayiş etdirib, yayovqatlı yaddaqalan bir gün keçiriblər. Təşkil edilən oyunlar - "Xəzinə ovu", "Balonlu estafet", "Sehrbaz" şou və digərləri uşaqların həm istirahətinin səmərəli təşkilinə, həm də inkişafına bir töhfə olub.



# Klassik avtomobillərin yürüşü və sərgisi keçirilib

**Avqustun 25-də Azərbaycan Avtomobil Federasiyası (AAF), Bakı Şəhər Halqası Əməliyyat Şirkəti və "Dreamland Golf Club"un təşkilatçılığı, "Nazar Holding"in baş sponsorluğu ilə paytaxtda klassik avtomobillərin yürüşü və sərgisi keçirilib.**




















AZƏRTAC xəbər verir ki, artıq ənənə halını alan yürüş qeydiyyatdan keçən klassik avtomobillərin, həmçinin Heydər Əliyev Mərkəzindəki daimi sərginin bəzi eksponatlarından ibarət nəqliyyat vasitələrinin Dənizkənarı Milli Parkda nümayişi ilə başlayıb.

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, digər tanınmış şəxslər və səhər sakinləri iştirak ediblər.

Yürüşə 1984-cü ilədək istehsal olunan avtomobillər qatılıb. Onların arasındakı ən qədim nəqliyyat vasitəsi 1929-cu ildə istehsal edilən "Mercedes Benz Gazelle" də olub. Bununla yanaşı, yürüşdə müxtəlif illərin bir-birindən unikal retro maşınları tamaşaçılarda nostalji hisslər yaradıb.

Dənizkənarı Milli Parkdan start götürən klassik avtomobillər şəhərin mərkəzi küçələri ilə yürüş edib.

Paytaxt küçələrini müxtəlif illərdə və ölkələrdə istehsal olunan klassik avtomobil karvanı bəzəyib. Bu avtomobillərin hər biri nəinki müasir nəqliyyat vasitələrindən fərqlənən və nostalji hisslər yaradan görünüşü, həm də maraqlı tarixi ilə diqqəti cəlb edib. Bakının küçələrini bəzəyən retro nəqliyyat vasitələri şəhər sakinləri, paytaxtımızın qonaqları və klassik avtomobil həvəskarlarının adətən köhnə kinolentlərdə gördüyü kadrları real həyatda canlandırıb.

Klassik nəqliyyat vasitələri Dənizkənarı bulvar - Neftçilər prospekti - Ağ Şəhər - Heydər Əliyev Mərkəzi - Heydər Əliyev prospekti - Hava limanı yolu - Zığ şosesindən keçməklə "Dreamland Golf Club"da finiş nöqtəsinə çatıblar.

Marşrutun sonunda "Dreamland Golf Club"da klassik avtomobillərin sərgisi keçirilib. Hər kəs həmin avtomobillərin qarşısında gözəl foto çəkdirib, retro nəqliyyat vasitələrinin tarixi, özəllikləri ilə daha yaxından tanış olmaq imkanı qazanıb.

"Ən qədim avtomobil", "Ən unikal avtomobil" və "Ən rəngarəng geyim" nominasiyalarında qaliblər seçilərək mükafatlandırılıb.

Nominasiyalarla yanaşı, qonaqlara tanınmış ifaçıların iştirakı ilə konsert və əyləncə proqramı da təqdim edilib.

Konsertdə sevilən müğənnilər Aysel, Dilarə Kazımova, Xəyyam Nisanov, Elnur və Nigar, Murad Arif, Nura Suri, Rilaya Hüseynzadə, Zamiq Hüseynov çıxış ediblər. Ölkəmizdə avtomobil həvəskarlarının marağına səbəb olan, o cümlədən avtomobil idmanı sahəsinin inkişafına yönələn müxtəlif tədbirlər keçirilir. Bu istiqamətdə Azərbaycan Avtomobil Federasiyasının fəaliyyəti xüsusi qeyd edilə bilər.

# Heydər Əliyev Mərkəzinin parkında "Yay Festivalı"nın bağlanış konserti təşkil olunub

**Demək olar ki, hamı ora tələsirdi. Üzlərdə, gözlərdə böyük sevinc vardı. Kimi ailəsi, kimi yaxın rəfiqəsi, kimi də sevgilisi ilə xoş anlar yaşamaq üçün Heydər Əliyev Mərkəzinin parkına üz tutmuşdu.**

















Ona görə ki, yayın son istirahət günü - avqustun 25-də Heydər Əliyev Mərkəzinin parkında "Yay Festivalı" adlı bağlanış konserti təşkil olunmuşdu. Sərin yay gecəsində parka gələnlər paytaxtın bu bənzərsiz məkanında həm istirahət edir, həm də burada səslənən bir-birindən fərqli ifaları dinləyirdilər. Bu anları əbədiləşdirmək üçün foto və video çəkməyi də unutmurdular.

Konsertdən əvvəl AZƏRTAC-a müsahibə verən ifaçılar da "Yay Festivalı"nda iştirakdan xüsusi zövq aldıqlarını, belə gözəl bir məkanda tamaşaçılar qarşısında çıxış etməyin onlar üçün də əvəzsiz olduğunu söyləyirdilər.

"Rast" qrupunun yaradıcısı və rəhbəri Rəşad Haşımov deyib ki, biz millət olaraq arzumuza çatmışıq, ərazi bütövlüyümüz tam təmin olunub. "Bizim üçün bundan böyük nə xoşbəxtlik ola bilər? Vətən hər şeydən birincidir. Bu gün dünyanın hər yerində başımız ucadır. Bunu bizə yaşadan başda Ali Baş Komandan olmaqla, şanlı Ordumuza uğurlar arzulayıram, şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı diləyirəm". O bildirib ki, "Rast" qrupu festivalda "Bakı-Bakı" mahnısını səsləndirəcək.

"Yay Festivalı" çərçivəsində çoxsaylı konsertlərin təşkil olunduğunu diqqətə çatdıran Əməkdar artist Təyyar Bayramov bildirib ki, festivala olduqca maraqlı bir proqramla yekun vurulacaq. Burada müxtəlif nəsillərə məxsus ifaçılar bir-birindən fərqli mahnılar təqdim edəcək: "Mən bu gecədə, belə bənzərsiz bir məkanda tələbələrimlə "Qarabağ" mahnısını ifa edəcəyəm. Düşünürəm ki, bu konsertdən hamı razı qalacaq".

Festivala xüsusi hazırlaşdığını vurğulayan müğənni Murad Arifin sözlərinə görə, gecəyə yeni mahnı ilə gəlib. Belə ki, o, konsertdə Mərdan Kazımovla birlikdə "Qara gözlər" mahnısını səsləndirəcək.

Elə ilk baxışdan görünürdü ki, konsertin istənilən auditoriyanın marağını cəlb etməsi üçün zəngin proqram hazırlanıb. Bu səbəbdən hamı nəfəs dərmədən səhnəyə çıxan hər bir ifaçını səbirsizliklə gözləyirdi.

"Yay Festivalı"nda məşhur musiqi xadimlərimizin iştirakı ilə müxtəlif janrlarda mahnılar ifa olunub. Sevdiyimiz və hər zaman böyük həvəslə dinlədiyimiz bu ifalar duet, yaxud kollektiv şəklində səslənib. Əksər mahnılar belə interpretasiyada ilk dəfə təqdim olunub. Məqsəd isə musiqidə nəsillərin dialoqunu nümayiş etdirməkdir.

Konsertdə Almaxanım Əhmədli və Aygün Bəylərlə virtual duet, Almaz Ələsgərli və Elçin Cəfərov, Aygün Kazımova və Zamiq Hüseynov, Elnur Məmmədov və Günay İbrahimli, Ədalət Şükürov və Nigar Camal, Faiq Ağayev və Dilarə Kazımova, Xəyyam Nisanov və Aysel, Könül Xasıyeva və İlkin Əhmədov, Mələkxanım Eyyubova və Ramal İsrafilov, Mənsum İbrahimov və Elnarə Xəlilova, Murad Arif və Mərdan Kazımov, Mübariz Tağıyev və Cavidan Fatihi, Nazim Pişyari və Mehin Hümbətova, Nazpəri Dostəliyeva və İlkin Dövlətov, Nisə Qasımova və Abbas Bağırov, Niyaməddin Musayev və "Döngə" qrupu, PRoMete və Samirə AliMəryam, "Rast" qrupu və Jamal Hashım, Sevda Ələkbərzadə və "Nənələr" qrupu, Tünzalə Ağayeva və Nadir Rüstəmli duetləri, eləcə də Gülyaz və Gülyanaq Məmmədovalar və Kamilə Nəbiyeva, İlahə Rüstəmova, həmçinin Təyyar Bayramov, Rəvanə Əmiraslanlı, Mirəli Sarızadə, daha sonra isə Səbinə Babayeva, Sona Əzizova, Atilla Qərib, Atilla Məmmədov çıxış ediblər.

Bir sözlə, paytaxt sakinləri və şəhərimizin qonaqları həmin gün parkda sevilən müğənnilərin ifasını dinləyib, gözəl yay axşamı keçiriblər.

# Pakistan mətbuatı Mehriban xanım Əliyevanın rəhbərliyi altında həyata keçirilən humanitar layihələrdən yazıb

**Pakistanın aparıcı kütləvi informasiya vasitələri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun qardaş ölkədə çoxşaxəli humanitar fəaliyyətindən bəhs edən məqalələr dərc edib.**



















AZƏRTAC xəbər verir ki, Pakistanın nüfuzlu "İslamabad Post" qəzetinin birinci səhifəsində baş məqalə kimi dərc olunmuş "Heydər Əliyev Fondunun Pakistanda humanitar izləri" sərlövhəli məqalədə qeyd olunub: "Heydər Əliyev Fondu Azərbaycanın birinci xanımı, zati-aliləri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə təkcə Azərbaycanda deyil, müxtəlif dost ölkələrdə, o cümlədən qardaş Pakistanda ehtiyacı olan icmaların rifahına və inkişafına mühüm töhfələr verib. Fond genişspektrli layihələr və xeyriyyə proqramları vasitəsilə Pakistanda səhiyyə, təhsil və sosial xidmətlərin təkmilləşdirilməsində mühüm rol oynayıb, bununla da iki qardaş xalq arasında əlaqələri gücləndirib".

Məqalənin müəllifi qeyd edib ki, Heydər Əliyev Fondunun Pakistandakı diqqətəlayiq təşəbbüslərindən biri əhalinin sağlamlığını yaxşılaşdırmaq və yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq məqsədi daşıyan Hayber-Paxtunxva və Pəncab əyalətlərində hepatit B virusuna qarşı peyvənd kampaniyası olub. Bundan əlavə, fond xüsusi ehtiyacı olan və məhdud fiziki imkanlı şəxslərə dəstək olmaq öhdəliyini nümayiş etdirərək, Peşəvərdəki "Əkbər Baxım" Serebral İflic İnstitutunda pulsuz müayinə təşkil edib.

Pakistanın daha bir geniş oxucu kütləsinə malik olan "Herald Star" nəşrində dərc olunan məqalədə diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondunun Pakistandakı tibb müəssisələrinə, məsələn, açıq ürək əməliyyatlarının aparıldığı İslamabaddakı Kulsum Xəstəxanasına göstərdiyi dəstək çoxsaylı insanların həyatını xilas edib və keyfiyyətli səhiyyə xidmətlərinə çıxışı yaxşılaşdırıb. Qəzet vurğulayıb: "Müasir qanköçürmə avadanlığı ilə təchiz olunmuş təcili tibbi yardım maşınının Həmzə Xeyriyyə Fonduna bağışlanması Fondun regionda təcili tibbi yardım xidmətlərinin və qanköçürmə imkanlarının genişləndirilməsi istiqamətində səylərini vurğulayır".

"Pakistan in the World" və "Pake-Conet" nəşrləri də Azərbaycanın birinci xanımının rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Pakistanda həyata keçirdiyi təhsil və səhiyyə layihələrindən yazıb. Məqalədə qeyd olunub: "Təhsil Heydər Əliyev Fondunun Pakistandakı təşəbbüslərinin diqqət mərkəzində olub. 2007-ci ildə Pakistandakı zəlzələdən sonra Müzəffərabadda qızlar üçün Rara Liseyinin tikintisi kimi layihələr uşaqlara daha yaxşı tədris mühiti və təhsil imkanları təmin edib. Bundan əlavə, fondun İslamabaddakı Talassemiya Mərkəzinə, həmçinin paytaxtdakı Əl-Fərabi adına Fiziki Qüsurlu Uşaqlar üçün Xüsusi Təhsil Mərkəzinə göstərdiyi dəstək xüsusi qayğıya ehtiyacı olan şəxslərin həyatına müsbət təsir göstərib".

Məqalədə vurğulanıb ki, Heydər Əliyev Fondu səhiyyə və təhsillə yanaşı, Pakistanda infrastrukturun inkişafına da mühüm töhfələr verib. Dera İsmayıl Xan bölgəsində Heydər Əliyev adına Su Təchizatı Sisteminin tikintisi elektrik infrastrukturunu təkmilləşdirməklə yanaşı, yerli icmaların təmiz suya və etibarlı elektrik enerjisinə çıxışını yaxşılaşdırıb, bununla da insanların həyat keyfiyyətini artırıb.

"DailyIttehad", "World News", "Diplomatic News Agency" xəbər portallarında Heydər Əliyev Fondunun humanitar səylərinin Pakistandakı müxtəlif sosial rifah institutlarını, o cümlədən əlillər üçün uşaq evləri və mərkəzlərini əhatə etdiyi qeyd olunur. Portalların dərc etdiyi məqalədə deyilir: "Pakistanın Beyt-ul-Maal Anemiya Mərkəzinin təmiri və avadanlıqla təchiz edilməsi üçün maliyyə yardımı göstərən, eləcə də Lahordakı "Edhi Homes" uşaq evində tədbirlər təşkil edən fond eyni zamanda əhalinin həssas təbəqəsinə dəstək vermək və sosial inklüzivliyi təşviq etmək öhdəliyini nümayiş etdirib".

Məqalələrdə diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondunun Pakistanda səhiyyə, təhsil, infrastrukturun inkişafı və sosial rifahı əhatə edən geniş humanitar fəaliyyəti saysız-hesabsız fərdlərin və icmaların həyatına dərin təsir göstərib. Fond ehtiyacı olan insanlara xidmət etmək üçün böyük fədakarlıq göstərərək, həm də qardaş Azərbaycan ilə Pakistan arasında əlaqələri daha da möhkəmləndirib.

"The Gulf Observer", "The Europe Today" informasiya portalları Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Pakistanda həyata keçirilən layihələrdən bəhs edərək yazıb: "Qeyd edək ki, Heydər Əliyev Fondunun Pakistanda nümunəvi işləri diqqətdən kənarda qalmayıb, onun rəhbəri cəmiyyətə verdiyi görkəmli töhfələrə görə təqdir və rəğbət qazanıb. Mehriban xanım Əliyevanın "Şəhid Benazir Bhutto Qadın Mükəmməlliyi Mükafatı - 2013"ə layiq görülməsi onun humanitar işlərə böyük sadiqliyinin göstəricisidir. Daha sonra 2015-ci ildə Azərbaycan ilə Pakistan arasında əlaqələrin möhkəmləndirilməsində göstərdiyi müstəsna səylərə görə fondun rəhbəri Pakistanın dövlət mükafatı olan nüfuzlu "Hilal-e-Pakistan" ordeni ilə təltif edilib. Bu mötəbər mükafatı alan ilk birinci xanım olan zati-aliləri Mehriban xanım Əliyeva beynəlxalq əməkdaşlığın və xoşməramlılığın gücləndirilməsi istiqamətində fədakar səylərini davam etdirir".

# Ərəb mediası Mehriban xanım Əliyevaya həsr olunmuş məqalələr dərc edib

**Ərəb ölkələrinin aparıcı kütləvi informasiya vasitələri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya həsr olunmuş məqalələr dərc edib.**






AZƏRTAC xəbər verir ki, Birləşmiş Ərəb Əmirliklərinin "Əl-Bəyan" qəzetində dərc olunan "Mehriban Əliyeva: Azərbaycan xalqının nümunəvi insanı" sərlövhəli məqalədə qeyd edilir ki, Mehriban Əliyeva ictimai fəaliyyətinin ilk günlərindən humanitar məsələlərə xüsusi diqqət yetirib. O, ölkə vətəndaşlarının rifah halını yaxşılaşdırmaq üçün saysız-hesabsız təşəbbüslərə rəhbərlik edib.

Məqalədə vurğulanır: "Azərbaycanın birinci xanımı və Birinci vitse-prezidenti Mehriban Əliyevanın mənalı ömür yolu və tükənməz enerjisi, xeyirxahlığı, insanlara göstərdiyi şəfqət və mərhəməti, həmçinin öz xalqına və dövlətinə fədakar xidməti xüsusi qeyd olunmalıdır". Qəzet yazır ki, Azərbaycanın birinci xanımı həm də qayğıkeş bir həyat yoldaşı və ana kimi bütün qadınlara nümunədir".

Geniş oxucu kütləsinə malik olan "Arab-countries" xəbər portalında dərc olunan məqalədə bildirilir ki, Mehriban xanım Əliyeva intellektual və mədəni ənənələri yaşadan ziyalı ailəsində dünyaya gəlib. Atası görkəmli alim, anası isə tanınmış filoloq olan Azərbaycanın birinci xanımı təhsilə, mədəniyyətə və ictimai fəaliyyətə qayğı və diqqət göstərilməsi üzrə ailə ənənələrini davam etdirib. Eyni zamanda Mehriban xanımın Moskvada İ.M.Seçenov adına Tibb Universitetində aldığı tibb təhsili də onun humanitar sahədə fəaliyyətində mühüm rol oynayıb.

"Pantimearabia", "Tuvaq", "Aqram", "Dubaihospitality", "Dubainews", "Observer-Dubai", "Qlobal Dubai" informasiya portallarında dərc olunan məqalədə isə Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondunun rəhbəri kimi çoxşaxəli ictimai və humanitar fəaliyyətindən bəhs edilib. "Azərbaycanın birinci xanımı həmvətənlərinin həyat şəraitini yaxşılaşdırmaq üçün saysız-hesabsız təşəbbüslərə rəhbərlik edib. Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin adını daşıyan bu fond 2004-cü ildən səhiyyə, təhsil və sosial rifah sahəsində mühüm irəliləyişlər əldə edib", - deyə məqalədə vurğulanıb.

"Abdae-alaelami" portalında dərc edilən məqalədə diqqətə çatdırılıb ki, Mehriban xanım Əliyevanın ən mühüm nailiyyətlərindən biri Azərbaycanda səhiyyə xidmətlərinin təkmilləşdirilməsidir. Portal yazır: "Heydər Əliyev Fondu onun rəhbərliyi altında xəstəxanaların, klinikaların və diaqnostika mərkəzlərinin tikintisini və təmirini maliyyələşdirib, müasir tibb müəssisələrinin bütün vətəndaşların istifadəsinə verilməsini təmin edib. Azərbaycanın birinci xanımının təşəbbüsləri arasında pulsuz tibbi xidmətlərin göstərilməsi və əhalinin həssas qruplarının dəstəklənməsini, sağlamlıq sahəsində qeyri-bərabərliyin aradan qaldırılmasını vurğulamaq olar.

Bundan əlavə, Mehriban Əliyeva təhsilə böyük önəm verib. O, şagirdlərin müasir, yaxşı təchiz olunmuş təhsil mühitinə çıxışını təmin edərək, Azərbaycanda yüzlərlə məktəbin tikintisi və təmiri təşəbbüslərinə rəhbərlik edib. Eyni zamanda Azərbaycan liderlərinin və alimlərinin gələcək nəslini yetişdirmək üçün təqaüd və tədqiqat proqramları həyata keçirilib".

"Hayatty-2.day" informasiya portalında isə Mehriban xanım Əliyevanın mədəni irsin qorunması və dünyada təbliği istiqamətində fəaliyyətinə xüsusi diqqət yetirilib. Məqalədə deyilir: "Mədəni irsin alovlu müdafiəçisi olan Mehriban xanım Əliyeva öz səylərini Azərbaycanın zəngin mədəni irsinin qorunub saxlanmasına və təbliğinə həsr edib. O, tarixi abidələrin bərpasına nəzarət edib, ənənəvi incəsənəti dəstəkləyib və Azərbaycanın nadir irsini dünyaya nümayiş etdirən beynəlxalq mədəni tədbirlərin təşəbbüskarı olub. Azərbaycanın birinci xanımının fəaliyyəti keçmişin zəngin irsinin qorunub saxlanmasına töhfə verməklə yanaşı, həm də insanlara milli qürur və özünəməxsusluq hissi aşılayıb".

"Gulftech-news", "Safarnews", "vdlnews.com" informasiya portallarında dərc olunan məqalələrdə də Mehriban xanım Əliyevanın Azərbaycanın ictimai-siyasi həyatındakı rolundan, o cümlədən onun Heydər Əliyev Fondunun prezidenti kimi təhsil, səhiyyə, mədəniyyət, sosial məsələlər və digər sahələrdə çoxşaxəli fəaliyyətindən bəhs edilib.

Məqalələrdə həmçinin Azərbaycanın birinci xanımının şəxsi insani keyfiyyətlərinə də geniş yer verilib. Diqqətə çatdırılıb ki, uğurlu dövlət xadimi olan Mehriban Əliyeva, həm də qayğıkeş, mərhəmətli və mehriban bir ailə xanımı, peşəkar və şəxsi həyatını ahəngdar şəkildə birləşdirən Azərbaycan qadınının təcəssümüdür.

Ərəb mediası qeyd edib ki, hazırda parçalanma və çəkişmələrin hökm sürdüyü qlobal şəraitdə Mehriban xanım Əliyevanın humanitar fəaliyyət sahəsinə göstərdiyi böyük diqqət, xeyirxahlıq və mərhəmət nümunəsi Azərbaycanın birinci xanımına xalq arasında dərin hörmət və rəğbət qazandırıb, gənc nəslin nümayəndələrini daha ədalətli və şəfqətli dünya düzəni quruculuğu istiqamətində səy göstərməyə ruhlandırıb.

# Heydər Əliyev Fondunun sayəsində ölkəmizdə muğam ifaçılığı intibah dövrünü yaşayır

**Qoca Şərqin ən qədim musiqi janrlarından biri olan muğam əsrlərdən bəri tədqiqatçıların diqqətini cəlb etmiş, bu gün də dünya musiqi mədəniyyətinin öyrənilməsində mühüm təhlil obyektidir. Azərbaycan xalqının qədim irsi olan bu incəsənət növü tarixən enişli-yoxuşlu yollardan keçsə də, xalqımız onu qoruyaraq və inkişaf etdirərək nəsildən-nəslə ötürə bilib. Müstəqil Azərbaycanda isə milli muğam ifaçılığı yeni inkişaf mərhələsinə qədəm qoyaraq dünyanı fəth edir.**



AZƏRTAC xəbər verir ki, avqustun 26-sı Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək yolu üzərində yerləşən ölkələrin musiqisi günü kimi qeyd olunur. 2010-cu ildə Kanadanın Niaqara şəhərinin meriyası və ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Niaqara musiqisi festivalının rəhbərliyi tərəfindən qəbul olunan bu qərar xalqımızın milli sərvəti olan muğamın bəşəri musiqiyə çevrildiyini bir daha təsdiq edir. Bu tarix muğamsevərlər, ömrünü bu sənətin yaşamasına və təbliğinə həsr edənlər üçün ən əziz bayramdır.

Ana südü ilə canımıza, qanımıza hopmuş, yaddaşımızda əbədiləşmiş Azərbaycan muğamı həm də dünya musiqi xəzinəsinin incisidir. Görkəmli xanəndələrimizin ifasında bu sənət növü dilindən, milliyyətindən asılı olmayaraq dinləyicini ilahi başlanğıc, əbədi olum-ölüm həqiqətləri barədə düşünməyə sövq edir, ona məhəbbət, sevinc, kədər hisslərini yaşadır.

Azərbaycan muğamının müasir tarixində ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli silsilə tədbirlər müstəsna rol oynayır. Bu fəaliyyətin nəticəsidir ki, son illər muğam ifaçılığı ən müxtəlif aspektlərdən hərtərəfli dəstək alaraq, sözün əsl mənasında, intibah dövrünü yaşayır. UNESCO-nun qərarı ilə dünya mədəniyyətinin qeyri-maddi irsinin bəşəri əhəmiyyətə malik sərvətləri sırasına daxil edilməsi muğamın, tar ifaçılığı sənətinin təkcə xalqımızın deyil, bütün bəşəriyyətin misilsiz mədəni sərvətinin ayrılmaz hissəsi kimi qiymətləndirilməlidir.

Ölkəmizdə "Muğam aləmi" beynəlxalq muğam festivallarının, müsabiqələrin, muğam konsertlərinin, simpoziumların təşkili, "Qarabağ xanəndələri" albomunun buraxılması, "Muğam" jurnalının, "Muğam ensiklopediyası"nın nəşri, müasir texnologiyalara əsaslanan və 8 diskdən ibarət "Azərbaycan muğamı" multimedia toplusunun hazırlanması Heydər Əliyev Fondunun bu sahəyə göstərdiyi diqqətə bariz nümunələrdəndir.

Azərbaycan xalqının qədim irsi olan muğam geniş kütlələrin ümumi mənəvi sərvətinə çevrilib. Bəşəriyyətin şifahi və mənəvi irsinin bənzərsiz xəzinələrindən olan muğam ötən əsrin əvvəllərindən başlayaraq dünya mədəniyyəti məkanına daxil olmağa başlayıb. 1971-ci ildə UNESCO 50 albomdan ibarət "Dünya ənənəvi musiqisinin antologiyası" kolleksiyasına "Şərqin musiqi antologiyası" seriyasında çıxan "Azərbaycan musiqisi" qrammofon valını da daxil etmişdir. 1975-ci ildə Azərbaycan muğamları yenə də UNESCO tərəfindən "Musiqi mənbələri" seriyasında buraxılıb. Azərbaycan muğamı Andrey Tarkovskinin bütün dünya ekranlarını dolaşan "Stalker" filmində, hətta kosmosda səslənmişdir. ABŞ Milli Kosmik Agentliyi (NASA) tərəfindən Azərbaycanın muğam musiqi nümunəsi 1977-ci ildə peyklə hətta kosmosa göndərilib.

Muğam Şərqin ən qədim musiqi janrlarından biri olduğu üçün dünya musiqişünaslarının, sənətsevərlərin diqqətini daim cəlb edə bilib. Qədim və Orta əsr Şərq musiqi mədəniyyətinin, folklorunun öyrənilməsində bu janr əsas amillərdən biri kimi tədqiqatçıların təhlil obyektinə çevrilib.

Bəstəkarlarımız üçün ilham mənbəyi olan muğam həm də milli musiqi mədəniyyətimizin uğurlarının əsasında durur. Dahi Üzeyir bəy Hacıbəyli "Leyli və Məcnun" operasını muğam üzərində yazıb, Fikrət Əmirov "Şur" və "Kürd-Ovşarı" simfonik muğamları ilə dünya musiqisində simfonik muğam janrının əsasını qoyub. Niyazi, Qara Qarayev, Soltan Hacıbəyov, Cövdət Hacıyev, Aqşin Əlizadə, Arif Məlikov, Firəngiz Əlizadə və digər görkəmli bəstəkarlarımızın yaradıcılığında muğamdan irəli gələn bədii prinsiplər ən müasir kompozisiya texnikası ilə qovuşur. Vaqif Mustafazadə bu janrı caz sənətinə gətirib.

Tarixən Şuşada Xarrat Qulu Məhəmməd oğlunun, Mir Möhsün Nəvvabın, Şamaxıda Mahmud Ağanın, Bakıda Məşədi Məlik Mənsurovun məclisləri, bu məkanlardan çıxan böyük sənətkarlar muğamın milli musiqimizin ana dili olduğunu bir daha təsdiqləyir. Hələ 1922-ci ildə Bakıda açılmış ilk Avropa tipli musiqi tədris müəssisəsinin dərs proqramına muğamın tədrisi daxil edilib. Bu sənət rəssamlarımız, heykəltaraşlarımız, şairlərimiz, rejissorlarımız üçün bu gün də ilham mənbəyidir.

Bütün bunların nəticəsidir ki, 26 Avqust - Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək yolu üzərində yerləşən ölkələrin musiqisi günü kimi qeyd olunmaqdadır.

Azərbaycan muğamına yeni bir həyat bəxş edən Mehriban xanım Əliyeva bu bənzərsiz sənət inciləri ilə bağlı fikirlərini belə dilə gətirir: "Biz azərbaycanlılar hamımız, haqlı olaraq, öz doğma muğamlarımızla fəxr edirik. Hər bir azərbaycanlı üçün muğam xüsusi əhəmiyyət daşıyır. Qərblə Şərq arasında, Böyük İpək yolu üstündə yerləşən Azərbaycan sivilizasiyaların qovuşduğu bir məkanda əsrlər boyu öz mədəniyyətini formalaşdırmışdır. Bəzi dövrlərdə biz müxtəlif imperiyaların daxilində yaşasaq da, dinimiz, milli dəyərlərimiz, dilimiz, mədəniyyətimiz bizi bir xalq kimi, millət kimi qoruyub saxlamışdır. Azərbaycanın zəngin mədəniyyətinin və tarixinin ən gözəl incilərindən biri olan muğam, muğam sənəti bizim milli sərvətimizdir. Muğam Azərbaycan xalqına xas olan ən gözəl xüsusiyyətlərin daşıyıcısıdır. Torpağa, köklərə bağlılıq, vətənpərvərlik, milli ləyaqət hissi, qonaqpərvərlik, xeyirxahlıq, mərhəmət, emosional zənginlik - bütün bu hisslər muğam fəlsəfəsinin əsasındadır. Odur ki, desəm - muğam gözəlliyin və məhəbbətin rəmzidir - səhv etmərəm".

Bu gün Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycanda bir-birindən maraqlı beynəlxalq musiqi festivalları təşkil edilir. Hər belə hadisə, hər belə musiqi festivalı böyük bir bayrama çevrilir. Dünya musiqiçilərinin diqqətini cəlb edən ən maraqlı məqamlardan biri də Azərbaycanda keçirilən müxtəlif təyinatlı bütün beynəlxalq əhəmiyyətli musiqi tədbirlərinin hər birində muğam elementlərinin olmasıdır. Bir sözlə, bizim muğamımız bu gün bütün dünyanı fəth etmək, dilindən, dinindən, irqindən, milliyyətindən asılı olmayaraq, hər kəsin qəlbini, ruhunu oxşamaq iqtidarındadır.

Dünyanı dolaşan, çoxsaylı dinləyici sevgisi qazanan, hamını öz dilində danışdırmağı bacaran muğamımızın zənguləsi nəhayət ki, dədə-baba torpaqlarımız olan doğma Qarabağda səslənməkdədir.

# Azərbaycanın xarici siyasətinin uğurları




## Azərbaycan türk dövlətlərinin birləşdirici gücünə çevrilib

**Prezident İlham Əliyevin ötən həftə Özbəkistana dövlət səfəri iki türk dövləti arasında əlaqələrin daha yüksək səviyyəyə çatdırılması baxımından tarixi hadisəyə çevrildi. Buna qədər strateji tərəfdaş olan Azərbaycanla Özbəkistan bu səfərdən sonra həm də rəsmən müttəfiq dövlətlər oldular. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, müttəfiqlik münasibətləri haqqında müqavilə iki ölkənin imzalaya biləcəyi ən yüksək beynəlxalq sənəddir.**

### Türk dünyasının qlobal mövqelərini möhkəmləndirən təşəbbüslər

Ümumiyyətlə, türk dövlətləri ilə münasibətlərin inkişaf etdirilməsi respublikamızın xarici siyasətinin əsas istiqamətlərindəndir. Bu baxımdan Özbəkistan, Qazaxıstan, Qırğız Respublikası, Türkiyə və Türkmənistanla münasibətlər bütün sahələrdə geniş və hərtərəfli olmaqla yanaşı, həm də özünəməxsusluğu ilə fərqlənir. Çünki xalqımız bu dövlətlərin xalqları ilə ortaq dəyərləri, türk soyunu bölüşür.

Xüsusilə qeyd edilməlidir ki, son onilliklərdə türk dövlətləri arasında əlaqələrin daha da gücləndirilməsinin, onların bu istiqamətdə səfərbər olmalarının, təşkilatlanmalarının səbəbkarı məhz Azərbaycandır. Hazırda türk dövlətlərini birləşdirən Türk Dövlətləri Təşkilatının təməli 15 il əvvəl - 2009-cu ildə Naxçıvanda qoyulub. Təşkilatın məqsəd və vəzifələri üzv dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviqi, bütün sahələrdə çoxtərəfli və ikitərəfli əməkdaşlığın gücləndirilməsi və sairdir.

Ötən onilliklər ərzində Azərbaycan türk dövlətləri arasında əlaqələrin daha da dərinləşməsinə layiqli töhfələr verib. Azərbaycan türk dünyasının yeganə dövlətidir ki, həyata keçirdiyi iqtisadi layihələrlə yalnız öz inkişafını təmin etmir, həm də türk dövlətlərinin iqtisadi əməkdaşlığının güclənməsinə xidmət edir, onların qlobal iqtisadi proseslərdə mövqelərini möhkəmləndirir. Məsələn, Azərbaycanın ərsəyə gətirdiyi Bakı-Tbilisi-Qars dəmir yolu xətti yalnız Asiyanı Avropa ilə birləşdirən nəhəng infrastruktur deyil. Bu həm də Azərbaycandan keçməklə Orta Asiyadan Türkiyəyə qədər türk dünyasının ticarət dövriyyəsini yüksəldən böyük bir iqtisadi imkandır.

Azərbaycanın ərsəyə gətirdiyi enerji layihələri də bütün türk dünyasını birləşdirir, onların qlobal bazarlara çıxış imkanlarını artırır. Belə ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri və "Cənub qaz dəhlizi" Orta Asiyanın türk dövləti üçün də hasil etdikləri karbohidrogen ehtiyatların ixracı baxımından yeni imkan deməkdir. Eyni zamanda Türkiyə də Azərbaycanın təşəbbüsləri ilə yaranan bu imkanlardan yararlanaraq özünün enerji təhlükəsizliyini möhkəmləndirir.

Azərbaycanın Qarabağ zəfəri isə həm də bütün türk dünyasının sevincinə səbəb oldu, onların hər birinin qələbəsinə çevrildi. Bu hadisə müasir türk tarixinin mühüm səhifəsinə çevrildi. Bu baxımdan türk dünyası Azərbaycanın qələbəsi ilə daha da gücləndi, daha da böyüdü.

### Strateji tərəfdaşlıqdan müttəfiqliyə

Bu il fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev bizim ailəmizin türk dünyası olduğunu bəyan etdi: "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır".

Bu il Qazaxıstan və Qırğız Respublikasının prezidentlərinin Azərbaycana dövlət səfərinə gəlmələri, Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi və bu məqsədlə Özbəkistan, Qırğız Respublikası, Qazaxıstan prezidentlərinin, Macarıstanın Baş nazirinin, Türkiyənin vitse-prezidentinin və Şimali Kipr Türk Cümhuriyyətinin Prezidentinin Azərbaycana səfər etmələri, Prezident İlham Əliyevin Qazaxıstanda Mərkəzi Asiya və Azərbaycan Respublikasının dövlət başçılarının görüşündə iştirakı Azərbaycanla türk dövlətləri arasında əlaqələrin güclənməsinə xidmət edən siyasi hadisələr oldu.

Türk dövlətləri arasında ikitərəfli münasibətlər bütövlükdə türk dünyasının əməkdaşlığına təsir edən mühüm amildir. Bu baxımdan Azərbaycan-Özbəkistan əlaqələri də zəngin və strateji məzmunu ilə diqqəti çəkir. Azərbaycanın Orta Asiyanın əhali sayına görə ən böyük türk dövləti olan bu respublika ilə münasibətləri mühüm özəllikləri ilə seçilir. Belə ki, Azərbaycan-Özbəkistan əlaqələri həm ikitərəfli, həm də çoxtərəfli platformalarda, o cümlədən Türk Dövlətləri Təşkilatında intensiv şəkildə inkişaf edir. Bu iki dövləti həmçinin onların xalqlarını tarixdən gələn mədəni bağlılıqlar, dostluq münasibətləri və dövlətlərin siyasi iradəsi birləşdirir. Təsadüfi deyil ki, Azərbaycanın torpaqlarını işğaldan azad etməsi Özbəkistanda böyük sevinc hissi ilə qarşılandı. Füzuli şəhərində Özbəkistan tərəfindən inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb isə bu ölkənin Azərbaycana qardaşlıq dəstəyidir.

Azərbaycan-Özbəkistan əlaqələrinin yüksək səviyyəyə çatmasında Prezident İlham Əliyevin və Prezident Şavkat Mirziyoyevin dostluq münasibətləri mühüm rol oynayır. Təsadüfi deyil ki, prezidentlərin qarşılıqlı səfərləri iki dövlət arasındakı yüksək siyasi anlaşmanın və dərin qardaşlıq münasibətlərinin növbəti təntənəsinə çevrilib. Bütün bunlar iki türk dövləti və xalqı arasındakı münaisbətlərin ruhundan xəbər verir.

Prezidentlərin səfərləri zamanı imzalanan sənədlər də ilk növbədə özündə yüksək siyasi əlaqələri və qardaşlıq münasibətlərini təcəssüm etdirir. Prezident İlham Əliyevin bir neçə gün əvvəl Özbəkistana dövlət səfəri zamanı imzalanan sənədlər, o cümlədən "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin imzalanması bunu təsdiq edir.

Türk dövlətləri arasında əlaqələrin genişləndirilməsi, bütövlükdə, türk toplumunun siyasi və iqtisadi baxımdan qlobal mövqelərinin gücləndirilməsi Azərbaycanın prioritetləridir. Görünən odur ki, türk dövlətlərinin birləşdirici gücü olan Azərbaycanın təşəbbüsləri, həyata keçirdiyi layihələr və ümumilikdə türk dövlətləri arasında genişlənən əməkdaşlıq bu işə mühüm töhfələr verir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## *Türkiyənin keçmiş səfiri:* "Azərbaycanla Özbəkistan arasında əməkdaşlıq TDT ölkələri üçün modeldir"

**"Prezident İlham Əliyevin Daşkəndə dövlət səfəri çərçivəsində imzalanmış Azərbaycan ilə Özbəkistan arasında Müttəfiqlik Münasibətləri haqqında Müqavilə bütün türk dünyası ölkələri üçün uğurlu qarşılıqlı fəaliyyətin bariz nümunəsidir". Bu fikri AZƏRTAC-a müsahibəsində Türkiyənin Azərbaycandakı keçmiş səfiri, "İMZA" Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyədəki nümayəndəsi Hulusi Kılıç söyləyib.**




O qeyd edib ki, Azərbaycan-Özbəkistan razılaşmaları əməkdaşlığın geniş spektrinin inkişafına yönəlib və eyni zamanda Ermənistanın işğalından azad edilmiş Xankəndi şəhərində Özbəkistan tərəfindən tekstil müəssisəsinin açılmasını nəzərdə tutur. "Bu, Daşkəndin təkcə investisiya addımı deyil, həm də siyasi mesajdır. Beləliklə, Özbəkistan Xankəndiyə sərmayə qoymağa hazır olduğunu bildirən ilk ölkə oldu", - deyə ekspert bildirib.

Kılıç xatırladıb ki, Özbəkistan Ermənistanda diplomatik nümayəndəlik açılmasını zəruri hesab etməyən dövlətlər sırasındadır.

"Bakı ilə Daşkənd arasında əməkdaşlığın əsasları Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub, Prezident İlham Əliyevin düşünülmüş siyasəti və Şavkat Mirziyoyevin müdrik kursu sayəsində güclü təkan alıb", - deyə ekspert bildirib.

İMZA ictimai birliyinin nümayəndəsi Azərbaycan liderinin Daşkəndə səfərinin nəticələrini "tarixi" adlandırıb və diqqəti Azərbaycan və Özbəkistan liderləri tərəfindən müəyyən edilmiş 20 yeni qarşılıqlı fəaliyyət istiqamətinə yönəldib.

Kılıç Azərbaycan-Özbəkistan əlaqələrinin Türk Dövlətləri Təşkilatı üçün əməkdaşlıq modeli olduğunu vurğulayıb.

"Prezident İlham Əliyevin Özbəkistana səfəri Azərbaycanın həm Qərblə, Rusiya Federasiyası ilə əlaqələrin qurulmasında, həm də türk dövlətləri ilə qarşılıqlı fəaliyyətdə özünü göstərən uğurlu və güclü çoxvektorlu xarici siyasətinin növbəti təzahürü oldu. Azərbaycan regionda parlaq ulduzdur, bu da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-da bir daha dünyaya nümayiş etdiriləcək", - deyə keçmiş səfir vurğulayıb.

## *Fərrux RÜSTƏMOV:* "Azərbaycan-Özbəkistan münasibətləri yeni mərhələyə qədəm qoyub"

**Eyni etnik kökə, ortaq tarixə, mədəni dəyərlərə, dinə sahib Azərbaycan və Özbəkistan respublikaları arasında siyasi-iqtisadi, elmi-mədəni əlaqələr sürətlə inkişaf edir.**



Hər iki respublika dövlət müstəqilliklərini əldə etdikdən sonra tarixi dostluq və qardaşlıq münasibətlərini yeni müstəvidə inkişaf etdirərək bugünkü müttəfiqlik səviyyəsinə qaldırıb. Bu əlaqələrin inkişafında, dövlətlərarası münasibətlərin formalaşmasında Ulu Öndər Heydər Əliyevin və Özbəkistanın sabiq prezidenti İslam Kərimovun müstəsna xidmətləri olub.

Bu barədə AZƏRTAC-a Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri professor Fərrux Rüstəmov bildirib. O qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin səyləri nəticəsində iki ölkənin münasibətləri bu gün tamamilə yeni mərhələyə qədəm qoyub. Son iki ildə Prezident İlham Əliyevin Özbəkistana beş səfərinin baş tutması dostluğun, qardaşlığın bariz nümunəsi kimi dəyərləndirilməlidir. Hər iki qardaş respublikanın prezidentlərinin qarşılıqlı səfərləri Mərkəzi Asiya, Cənubi Qafqaz, Xəzər regionlarını vahid geosiyasi regiona çevirib. Özbəkistan ilə Azərbaycan arasında səmərəli əməkdaşlıq regionda baş verən bütün proseslərə müsbət təsir göstərir.

Professor vurğulayıb ki, bu il avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə imzalanmış Azərbaycan-Özbəkistan sənədləri türk dünyasının birliyinə, strateji tərəfdaşlığın dərinləşdirilməsinə, hərtərəfli əməkdaşlığın inkişafına dəyərli töhfədir. Müttəfiqlik münasibətləri haqqında bağlanan müqavilə iki ölkənin imzalaya biləcəyi ən yüksək beynəlxalq sənəddir. Bununla da iki qardaş xalq, iki müstəqil, güclü, suveren, nüfuzlu dövlət rəsmi müttəfiq oldular. Bu, yaxın illərdə nəinki iki dövlət arasında, həm də regional siyasətdə yeni istiqamətləri müəyyən edəcək. Məktəbəqədər, ümumi təhsil, peşə təhsili, orta ixtisas, ali təhsil və elm sahəsində əməkdaşlıq haqqında imzalanan protokollar təhsil sahəsində əməkdaşlığın yeni mərhələyə qalxmasına, müəllim-tələbə və təcrübə mübadiləsinə, birgə tədqiqatların aparılmasına təkan verəcək.

F.Rüstəmov qeyd edib ki, siyasi-iqtisadi əlaqələrimizin genişlənməsi Özbəkistanda yaşayan 70 minə yaxın azərbaycanlının sosial, ictimai, iqtisadi və digər sahələrdə fəal iştirakını təmin edəcək. Azərbaycan-Özbəkistan münasibətləri bundan sonra da yüksələn xətlə inkişaf edəcək, ölkələrimizin və xalqlarımızın, regionumuzun, həm də bütün türk dünyasının inkişafına dəyərli töhfələr verəcək.

## "Bakının BRICS-ə qoşulmaqla bağlı müraciəti Prezident İlham Əliyevin diplomatik məharətinin göstəricisidir"

**Azərbaycanın BRICS-ə qoşulmaq üçün müraciət etməsi Prezident İlham Əliyevin diplomatik məharətinin və qlobal arenada prosesləri proqnozlaşdırmaq qabiliyyətinin göstəricisinə çevrilib.**

AZƏRTAC xəbər verir ki, bu fikri Türkiyə telekanallarından birinin efirində Ankaranın Başkənd Universitetinin professoru Hasan Ünal deyib.

Ünal diqqəti Ümummilli Lider Heydər Əliyevin və onun davamçısı Prezident İlham Əliyevin uzunmüddətli balanslaşdırılmış xarici siyasətinə, o cümlədən Rusiya ilə münasibətlərə çəkib.

"Prezident İlham Əliyev siyasətə hər zaman balanslaşdırılmış yanaşma nümayiş etdirib və BRICS ilə bağlı qərar onun yüksək diplomatik istedadını və dünya proseslərini təhlil etmək bacarığını göstərdi", - deyə ekspert bildirib.

Ankara universitetinin professorunun sözlərinə görə, Bakının BRICS ilə bağlı qərarı Türkiyə üçün də bir "yolgöstəricidir".

Fransa və bir sıra digər dövlətlərdən Ermənistana silah tədarükü ilə bağlı müqavilələrə münasibət bildirən Ünal qeyd edib ki, İrəvanda hakimiyyət öz siyasəti ilə Rusiyadan tamamilə təcrid edilə bilər və bu, Moskvanın regionda yalnız Bakı ilə əməkdaşlıq edəcəyinə gətirib çıxaracaq.

Professor vurğulayıb ki, münasibətlərin normallaşması, kommunikasiyaların açılması Azərbaycandan daha çox Ermənistana lazımdır, çünki İrəvandan fərqli olaraq, Bakı Ankara ilə alternativ əlaqə marşrutuna malikdir.

Ekspert eyni zamanda qonşu ölkələr arasında ziddiyyətlərin aradan qaldırılmasında regional dialoqa söykənməyin vacibliyini qeyd edib və buna misal olaraq Türkiyənin daha əvvəl təklif etdiyi "3+3" platformasını göstərib.

Onun fikrincə, Qərb regionda qarşıdurmanı təkcə Ermənistan vasitəsilə deyil, həm də Gürcüstandan istifadə edərək artırmağa çalışır, lakin Tiflis bu təhlükəni vaxtında anladı və Rusiya ilə münasibətlərdə düşünülmüş kursla getməyə başladı. "Ümid edirəm ki, Gürcüstan "3+3" platformasında iştirakla bağlı mövqeyinə yenidən baxacaq", - deyə ekspert bildirib.

## *Türkiyəli ekspert:* "Azərbaycan əsas oyunçu və BRICS-in Qərbə "pəncərəsi"dir"

**"BRICS nöqteyi-nəzərindən "sabitlik" sözünün ən çox aid olduğu iki ölkə var. Bu, Çin və Azərbaycandır. Əgər BRICS ölkələri Qərb dövlətləri ilə münasibətlərdə sıçrayışa nail olmağı hədəfləyirsə, bunun üçün ən düzgün platforma güclü iqtisadiyyata və dünyanın bir çox dövlətləri ilə yüksək səviyyədə münasibətlərə malik Azərbaycandır".**

AZƏRTAC xəbər verir ki, bu fikri Ankaranın Hacı Bayram Vəli Universitetinin dosenti Levent Ersin Orallı CGTN kanalının efirində bildirib.

Onun sözlərinə görə, Azərbaycanın BRICS-in Qərblə əlaqələrində əsas oyunçuya çevrilmək üçün bütün imkanları var və bu baxımdan Bakının rolu yalnız artacaq.

Ekspert vurğulayıb ki, müasir Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş qalib dövlətdir. "Azərbaycan yenidən İranla dialoq quran, Rusiya Prezidenti Vladimir Putini qəbul edən xarizmatik lideri olan ölkədir", - deyə Orallı qeyd edib.

Ekspert BRICS-ə üzv ölkələrdəki vəziyyətə diqqət çəkib. "Tehran və Moskvanın Qərblə münasibətlərinin yaxın gələcəkdə həll olunacağı ehtimalı azdır. Misir və BƏƏ-nin daxili siyasətində problemlər mövcuddur, Efiopiya ilə Somali arasında fikir ayrılıqları qalmaqda davam edir. Buna görə də Azərbaycan BRICS-in Qərb dünyasına yeganə "pəncərəsidir", - deyə Hacı Bayram Vəli Universitetinin dosenti söyləyib.

O, xatırladıb ki, 2006-cı ildə BRICS-in yaradılması ideyasının əsasını Qərb hegemonluğuna əsaslanan dünya nizamına meydan oxumaq təşkil edib. "Müasir BRICS artıq doqquz dövləti birləşdirən və dünya ticarətinin 2/3-nə nəzarət edən iqtisadi modeldir. Azərbaycan BRICS dövlətləri ilə bir sıraya durmağa hazır olduğunu bildirməklə, erməni işğalından azad edilmiş torpaqların bərpasından qat-qat əhəmiyyətli məqsədlər güdür. Bakı Qərb imperializminə müqavimət göstərmək və çoxqütblü dünya ideyasını dəstəkləmək əzmini nümayiş etdirir", - deyə türkiyəli ekspert vurğulayıb.

Onun fikrincə, Azərbaycan BRICS-ə ərizə verməklə, respublikanın gələcək inkişafının iqtisadi modelinin bu təşkilatın vektorunu nəzərə alacağını açıq şəkildə bildirib.

Ankara Universitetinin dosenti Bakının BRICS-ə qoşulmaq üçün müraciətinin Türk Dövlətləri Təşkilatına (TDT) üzv olan digər ölkələr tərəfindən də analoji addımların atılması üçün nümunə və təkan olacağına əminliyini ifadə edib.

Türkiyənin BRICS-ə qoşulma ehtimalına gəlincə, ekspert qeyd edib ki, Avropa İttifaqı (Aİ) və digər Qərb ölkələri ilə sıx inteqrasiya əlaqələri və gömrük sazişləri mövcud olduğundan Ankaranın belə birliyə daxil olması daha çətin olacaq.



"Türkiyə müəyyən Aİ standartlarına riayət edir. Eyni zamanda Türkiyə ixracatı dollar və avro ilə əməliyyatlara əsaslanır. Yenə də Almaniya Türkiyə üçün ən böyük bazarlardan biri olaraq qalır. Türkiyə ixracatçıları Qərb bazarlarına güvəndikcə Ankaranın iqtisadi vektorunun dəyişməsi çətin görünür", - deyə o bildirib.

Orallı BRICS-i "ciddi seçim" adlandırıb, bunun üçün "Aİ-yə bənzər, hələ mövcud olmayan güclü vahid bazarın" olması lazımdır. "Ankarada güclü bazarın olması və yeni böyük xarici sərmayələrin cəlb edilməsi imkanları barədə təsəvvür yaranmayana qədər ölkəmiz təşkilata üzvlük üçün səy göstərməyəcək. Bunu BRICS üzvləri də dərk edirlər", - deyə Orallı hesab edib.

Eyni zamanda, o, ortamüddətli perspektivdə proseslərin Ankaranın bu məsələdə mövqeyinə təsir edə biləcəyini istisna etməyib.

Azərbaycanın BRICS-ə müraciəti mövzusuna qayıdaraq ekspert qeyd edib ki, bu platforma həm də iştirakçı ölkələr arasında fikir ayrılıqlarının həll edilməsi potensialını ehtiva edir. "Məsələn, İran BRICS-in üzvüdür. Azərbaycanın qəbul olunması iki ölkənin iqtisadi yaxınlaşmasına və müəyyən mərhələdə siyasi maneələrin aradan qaldırılmasına töhfə verə bilər", - deyə türkiyəli ekspert dövlətlərarası problemlərin həllinin yolunun iqtisadi əməkdaşlıqdan keçdiyi Aİ-ni misal çəkərək bildirib.

Orallının sözlərinə görə, XXI əsrin çağırışları əvvəlki əsrin problemlərindən ciddi şəkildə fərqlənir. "Əgər XX əsrdə dövlətlər müdafiə və hərbi sahədə güclü ittifaqlar axtarırdılarsa, bu gün iqtisadiyyata güvənirlər. XXI əsr iqtisadi inkişafın getdikcə mürəkkəbləşdiyi və dövlətlərin artıq Qərb hegemonluğunun təzyiqi problemindən xilas ola bilməyəcəyi bir dövrdür".

Ankara Universitetinin dosenti belə bir fikir bildirib ki, əgər BRICS dövlətləri iqtisadi müstəqilliyini təmin edə bilsələr və ya təşkilatın iqtisadi platforması çərçivəsində özlərini təhlükəsiz hiss etsələr, o zaman qlobal səviyyədə yeni təhlükəsizlik arxitekturası formalaşacaq. "Həm ŞƏT, həm də BRICS Türkiyənin nəzərə almalı olduğu vacib alternativlərdir", - deyə o yekunlaşdırıb.

# Laçın Şəhəri Gününün təntənəli açılış mərasimi keçirilib









**Avqustun 26-da Mədəniyyət Nazirliyinin və Azərbaycan Respublikası Prezidentinin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı, "Bakı Abadlıq Xidməti" MMC-nin dəstəyi ilə Laçın şəhərindəki Bayraq meydanında Laçın Şəhəri Gününün təntənəli açılış mərasimi keçirilib.**

Bayram ab-havası ilə keçirilən mərasimdə doğma Vətənə qayıdan laçınlılarla yanaşı, rəsmilər, mədəniyyət xadimləri və digər qonaqlar iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Hərbi Orkestrinin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov Laçın Şəhəri Günü münasibətilə sakinləri təbrik edib. Qeyd edib ki, artıq ikinci dəfədir ki, Laçın Şəhəri Günü qeyd edilir. Əlamətdar gün Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" 31 iyul 2023-cü il tarixli Sərəncamı ilə təsis olunub.

"Otuz ilə yaxın işğal dövründə düşmən Laçın şəhərini xarabalığa çevirmişdi. Laçının azad olunmasından başlayaraq qısa dövr ərzində burada bərpa-quruculuq işləri aparılıb. Hazırda Laçın şəhəri əvvəlki əzəmətini bərpa etməkdədir. Bir daha bayram münasibətilə bütün laçınlıları təbrik edirəm", - deyə M.Məmmədov diqqətə çatdırıb.

Laçın rayon 2 nömrəli tam orta məktəbin direktoru Sevinc Cabbarova və laçın sakini Qəzənfər Hüseyn Qarabağ və Şərqi Zəngəzurun Prezident İlham Əliyevin rəhbərliyi altında işğaldan azad edilməsindən sonra geniş bərpa-quruculuq işlərinin aparıldığını, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışının təmin edildiyini, bu torpaqların, o cümlədən uzun illərdən sonra geri qayıtdıqları Laçının yenidən dirçəldiyini qeyd ediblər. Həmçinin əsrarəngiz təbiəti ilə məşhur olan Laçının doğma Azərbaycanın şanlı tarixini öz qəlbində yaşadan məkan olduğu bildirilib.

Açılış mərasimindən sonra Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Hərbi Orkestrinin müşayiəti ilə Bayraq meydanından "Lacinema" Kino Mərkəzinə yürüş keçirilib.

Qonaqlar Kino Mərkəzində "Laçınım mənim" rəsm sərgisi və "Zamanın qanadlarında - Laçın" fotosərgisi ilə tanış olublar.

Bu gün doğma Laçınımızın füsunkar və əsrarəngiz, yaşıl təbiəti müxtəlif tədbir proqramları ilə al-əlvan rənglərə boyanıb. Gün ərzində keçirilən tədbirlər nəinki laçınlıların, eləcə də bütün Azərbaycan xalqının yaddaşında daim qalacaq. Belə ki, Laçın şəhərinin yenidən doğuluşunun ikinci ildönümü münasibətilə geniş bayram proqramı tərtib edilib. Şəhərin mənzərəli terrasında rəngarəng proqramlar həyata keçirilir. Məkanda xalq tətbiqi sənəti üzrə ustad dərsləri təşkil olunur. Ustad dərslərində şəbəkə, həsir sənəti, keramika, misgərlik və s. sahələr üzrə məlumat verilərək, onların bir çoxunun hazırlanması prosesi əyani nümayiş etdirilir.

Həmçinin gün ərzində Həkəri çayının sahilində "Can Laçın" yarmarkası (Laçın mətbəxinin təqdimatı), Dağların nəfəsi - poeziya saatı və uşaqlar üçün tədbirlər (çərpələng-uçurtma, maska, şar və torba oyunları, face art və s.) təşkil olunub.

Qeyd edək ki, ötən ildə Azərbaycanın əlamətdar günlər təqviminə yeni bir gün, 26 avqust - Laçın Şəhəri Günü daxil olub. İlk dəfə ötən il qeyd edilən bu gün Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" 2023-cü il 31 iyul tarixli Sərəncamı ilə təsis edilib.

# Həkəri çayının sahilində Laçın Şəhəri Gününün möhtəşəm qala-konserti təşkil edilib









**Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı, "Bakı Abadlıq Xidməti" MMC-nin dəstəyi ilə növbəti dəfə təntənəli şəkildə qeyd olunan Laçın Şəhəri Günü tədbirləri sona çatıb.**

AZƏRTAC xəbər verir ki, Həkəri çayının sahilində qurulmuş əsas səhnədə şəhər gününün möhtəşəm qala-konserti təşkil edilib.

Konserti dövlət rəsmiləri, tanınmış mədəniyyət xadimləri, laçınlı sakinlər və digər qonaqlar izləyiblər.

Əvvəlcə Prezident İlham Əliyevin Laçın şəhərinə səfəri və şəhər sakinləri ilə görüşünü özündə əks etdirən kadrlar nümayiş olunub.

Musiqi proqramında Xalq artisti Faiq Ağayev, Əməkdar artistlər Ehtiram Hüseynov, Lalə Məmmədova, İlkin Əhmədov, Rəşad İlyasov, Elza Seyidcahan, Günel Şeyxova, ifaçılar Aşıq Ramin, Araz Hümbətli, Kamilə Nəbiyeva, Fuad Musayev, Könül Məmmədli, Vüsal Hacıyev, Murad Arif, həmçinin "Amarok" qrupu, Fikrət Əmirov adına Əməkdar kollektiv Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı və "Laçın" muğam qrupu çıxış ediblər.

Qala-konsertdə Məhəbbət Kazımovun "Laçınım", "Dağlar boyda dağım var", Aydan Əliyevanın "Gözəl Azərbaycan", Rauf Məmmədovun "Yaşa Azərbaycan", Oqtay Kazımının "Ey həyat, sən nə qəribəsən", Emin Sabitoğlunun "İncə bellim", Elza Seyidcahanın "Laçınımın dağlarında", Ələkbər Tağıyevin "El yolunda", Bəhram Nəsibovun "Anadır arzulara", Telman Hacıyevin "Vətən süitası" və Xanım İsmayılqızının "Sən qalibsən" mahnıları səsləndirilib. Həmçinin "İncilər" kompozisiyası, "Cəngi" rəqsi, "Xalq bayatıları", "Misri" aşıq havası, "Uzundərə" xalq rəqsi, "Ay Laçın" xalq mahnısı və "Şur" təsnifi ifa edilib.

Bütün çıxışlar gur alqışlarla qarşılanıb. Tədbir atəşfəşanlıqla başa çatıb.

# YAP Mərkəzi Aparatında müşavirə

Avqustun 26-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında Azərbaycan Respublikası Milli Məclisinə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilərlə əlaqədar YAP-ın Tədbirlər Planına uyğun olaraq Azərbaycan Respublikasının bütün seçki dairələrində səsvermə günü müşahidə aparacaq şəxslərin təlimatlandırılması məqsədilə müşavirə keçirilib. Seçki prosesində müşahidəçilik institutunun rolu və əhəmiyyəti, müşahidə aparılması qaydaları, müşahidəçilərin hüquq və vəzifələri barədə ətraflı izahat və məlumat verilib.

Daha sonra iştirakçıları maraqlandıran suallar cavablandırılıb, müvafiq tapşırıq və tövsiyələr diqqətə çatdırılıb.

# Türkiyə Prezidenti meşə yanğınlarının söndürülməsində dəstəyə görə Azərbaycanın liderinə təşəkkürünü bildirib



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan meşə yanğınlarının söndürülməsində göstərilən dəstəyə görə Azərbaycan xalqına və Prezident İlham Əliyevə təşəkkürünü bildirib.**

AZƏRTAC xəbər verir ki, Bitlis vilayətində çıxış edən Türkiyənin dövlət başçısının sözlərinə görə, Azərbaycanın lideri İlham Əliyev bir daha qardaşlıq örnəyi və "Bir millət, iki dövlət" kəlamına sədaqətini nümayiş etdirib.

Rəcəb Tayyib Ərdoğan deyib: "Qardaşım İlham Əliyev yalnız telefon danışığı ilə kifayətlənmədi, meşə yanğınlarının söndürülməsinə güclü dəstək olan amfibiya təyyarəsini ölkəmizə göndərdi. Azərbaycan həmişə Türkiyənin köməyinə gəlib, eyni zamanda biz də çətin məqamlarda qardaş ölkəyə yardım edirik. Bu, gələcəkdə də davam edəcək".

O xatırladıb ki, bundan əvvəl Rusiya Prezidenti də analoji addım atıb və Türkiyədə meşə yanğınlarının söndürülməsinə kömək etmək üçün təyyarə göndərib. Ərdoğan qeyd edib: "Bu iki təyyarə sayəsində ölkəmizdə yanğınları daha sürətli templərlə söndürə bilirik".

# Kamran Əliyev BPA-nın baş katibi Roel Dona və icraçı direktoru Yanne Holst Hübner ilə görüşüb



**Baş prokuror Kamran Əliyevin dəvəti ilə dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) baş katibi Roel Dona və icraçı direktoru Yanne Holst Hübner ölkəmizə işgüzar səfərə gəlib.**

Baş Prokurorluğun Mətbuat Xidmətinin verdiyi məlumata görə, qonaqları səmimi salamlayan baş prokuror Kamran Əliyev ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlar barədə onları məlumatlandırıb.

Baş Prokuror Roel Donanı BPA-nın baş katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik edib, fəaliyyətində uğurlar arzulayıb.

Daha sonra 2024-cü ilin sentyabr ayında ölkəmizin evsahibliyi ilə keçiriləcək BPA-nın 29-cu İllik Konfrans və Ümumi Yığıncağına hazırlıq işlərinin gedişatı və bir sıra təşkilati məsələlər müzakirə edilib.

Baş prokuror həmçinin bu il ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 barədə məlumat verərək, BPA-nın Bakıda keçiriləcək 29-cu illik konfransı zamanı dünya prokurorları arasında hüquq-mühafizə orqanlarının iqlim dəyişikliyi ilə mübarizədə səfərbər olunması, habelə ekoloji cinayətlərə qarşı birgə mübarizə mövzularının təşviq və müzakirəsinin vacibliyini vurğulayıb. Təşkilatın baş katibi səmimi qəbula görə minnətdarlığını ifadə edərək prokurorluq orqanlarında həyata keçirilən islahatları yüksək qiymətləndirib, milli prokurorluq orqanlarımızın rəhbərliyi tərəfindən Assosiasiyanın işinə verilən dəyərli töhfə və daimi dəstəyə görə təşəkkür edib.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

# Şeyxülislam Allahşükür Paşazadə Rus Pravoslav Kilsəsi Patriarxının nümayəndə heyəti ilə görüşüb



**Moskva və Bütün Rusiya Patriarxı Kirillin xüsusi tapşırığı əsasında Azərbaycanda səfərdə olan Rus Pravoslav Kilsəsi Patriarxının nümayəndə heyəti avqustun 26-da Qafqaz Müsəlmanları İdarəsində (QMİ) olub.**

AZƏRTAC xəbər verir ki, Rus Pravoslav Kilsəsinin Xarici Əlaqələr şöbəsinin sədri Mitropolit Antoniyin rəhbərlik etdiyi nümayəndə heyəti Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə ilə görüşüb. Tədbirdə ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri, VI çağırış Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri və digər rəsmi şəxslər iştirak ediblər.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan-Rusiya əlaqələrinin çox möhkəm olduğunu və tarixi köklərə əsaslandığını bildirib. Vurğulayıb ki, ölkələrimizi həm də siyasi, iqtisadi və mədəni sahələrdə sıx əməkdaşlıq əlaqələri bağlayır.

Azərbaycan ilə Rusiya arasındakı münasibətlərdən danışan şeyxülislam Allahşükür Paşazadə Rusiya Prezidenti Vladimir Putinin bu yaxınlarda ölkəmizə səfərinin əlaqələrimizin yeni və yüksək mərhələyə keçməsində rolunu qeyd edib. "Azərbaycanda müxtəlif dini konfessiyalar fəaliyyət göstərir. Biz bir ailəyik. Bu ailənin hər bir üzvü özünü doğma evində hiss edir. Çünki Azərbaycan tolerant ölkədir və müxtəlif dinlərdən olan xalqlara, insanlara eyni səviyyədə hörmət göstərilir, onların hüquqları qorunur", - deyə A.Paşazadə vurğulayıb. Azərbaycan-Ermənistan münasibətlərinə də toxunan QMİ sədri dini rəhbərlərin də üzərinə məsuliyyət düşdüyünü, onlara münaqişə və müharibələrin alovlandırılmasında deyil, söndürülməsində maraqlı olmalarını tövsiyə edib. Bildirib ki, Ermənistan kilsəsi münasibətləri normallaşdırmaqda deyil, qızışdırmaqda maraqlıdır və bu da təəssüf doğurur.

Sonra çıxış edən Rus Pravoslav Kilsəsi Patriarxının nümayəndə heyətinin rəhbəri, Rus Pravoslav Kilsəsinin Xarici Əlaqələr şöbəsinin sədri Mitropolit Antoniy QMİ sədrinin səmərəli fəaliyyətindən məmnunluğunu ifadə edib. M.Antoniy Şeyxülislamı ad günü münasibətilə təbrik edərək, onun din-dövlət münasibətlərinin yüksək səviyyədə aparılması, tərəqqi və əmin-amanlıq naminə səylərini yüksək qiymətləndirib.

O, Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirillin Şeyxülislam Allahşükür Paşazadəyə ad günü münasibətilə ünvanladığı təbrik məktubunu oxuyub.

M.Antoniy həmçinin QMİ sədrini Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirillin adından Kiyev, Moskva və bütün Rusiya mitropoliti müqəddəs Aleksiy ordeni ilə təltif edib.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Avropa azad mediaya qarşı repressiyaları davam etdirir



**"Telegram" sosial şəbəkəsinin yaradıcısı Pavel Durovun Fransada həbs olunması qlobal miqyasda hüquq, insan haqları və ədalət adına utanc olmaqla bərabər, Fransanın təcavüzkar mahiyyətini bir daha ifşa etdi. Bakıya səfərinin ardınca Parisə yollanan Durova qarşı irəli sürülən ittihamlar bir daha göstərir ki, əslində, məsələnin mahiyyətində tamamilə fərqli məqamlar dayanır".**

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Fransa hakimiyyəti cinayət təqibini və aidiyyəti orqanları ucuz siyasi alətə çevirib. Birmənalı şəkildə əminliklə deyə bilərik ki, Fransanın aidiyyəti hakimiyyət orqanlarının Pavel Durovu həbs etməkdə məqsədi hansısa cinayət əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmadığını, yaxud cinayəti törətməkdə təqsirləndirilən şəxsin təqsirli olub-olmadığını müəyyən etmək deyil, Makron rejiminin qarşıya qoyduğu konkret hüquqazidd əməllərə alət etmək məqsədilə milyarderə təzyiq etmək niyyəti güdür. Sirr deyil ki, Fransa artıq uzun illərdir özünü insan hüquqlarının təmin edilməsi istiqamətində "jandarm", yaxud "qlobal ombudsman" kimi qələmə verərək ayrı-ayrı dövlətlərin üzərində təzyiq mexanizmi formalaşdırmağı, "insan haqları" pərdəsi altında özünün hüquqazidd mənafelərini təmin etməyə cəhd göstərməyi adət halına çevirib. "Bu illər ərzində Fransanı istər müstəmləkələrində törətdiyi çoxsaylı hərbi-siyasi cinayətlərə, istərsə də insan hüquqları adı altında manipulyasiyalarını açıq formada qınayan, bu əməllərə görə ittiham edən hər hansı beynəlxalq subyekt olmadığı üçün gedişatda daha da azğıncasına hərəkət etməkdədir. Pavel Durov məsələsinə gəlincə, aydındır ki, Makron rejimi dünyanın ən geniş şəbəkəyə malik sosial media alətlərindən olan "Telegram" üzərində nəzarət imkanlarını bərqərar etmək istəyir. Xüsusən Azərbaycanın Qoşulmama Hərəkatına rəhbərliyi dövründə start verdiyi və bu gün vüsət alan Fransanın imperialist siyasətinin bütün sferalarda ifşa edildiyi bir məqamda, təbii ki, Paris "Telegram" kimi informasiya alətlərinə ciddi ehtiyac duyur", - deyə o əlavə edib.

Müsahibimiz qeyd edib ki, Pavel Durovun üzərində saxta cinayət təqibi Fransa hakimiyyətinin rəhbərliyində mövqe tutan ayrı-ayrı şəxslərin korrupsiya maraqlarının inikası da hesab edilə bilər. Görünən odur ki, bu qondarma cinayət işi ilə Fransa hakimiyyəti həm "Telegram" kimi geniş imkanlara malik sosial media şəbəkəsi üzərində nəzarət əldə etməyi, həm də milyarder Durovun özünün və şirkətinin maddi potensialına şərik olmağı hədəfləyir. Bu isə açıq şəkildə dövlət səviyyəsində beynəlxalq quldurluq hesab olunmalıdır. Əslində, bu cinayətkar mahiyyət Fransa üçün yad hal deyil. Bütövlükdə Qərbin digər imperialist subyektləri kimi Paris də dəfələrlə bu kimi addımlarla arzuladığı məqsədlərə nail ola bilib. Məsələn, Liviyanın keçmiş lideri Müəmmər Qəddafi ətrafında baş qaldıran siyasi skandal zamanı Fransa hakimiyyətinin uzun illər ərzində Qəddafidən davamlı olaraq maddi vəsaitlər aldığı ortaya çıxmışdı. Lakin bütün bunların fonunda əminliklə demək olar ki, Durova qarşı cinayət işinin təməlində daha çox maddi nemət və imtiyazlar yox, Fransanın çirkin siyasi məqsədləri dayanır.

B.Məhərrəmov vurğulayıb ki, Durovun məhz Azərbaycandan səfərdən dönərkən həbs edilməsinə gəlincə, bunun təsadüf olub-olmadığını proseslərin gedişində daha aydın formada görmək olacaq: "Lakin indiki məqamda dünya ictimaiyyətinin qarşısında dayanan əsas vəzifə qlobal miqyasda tanınan və dünya iqtisadiyyatının informasiya sferasında özünəməxsus rolu olan bir şəxsin Fransanın təcavüzkar mahiyyətinə qurban getməsinə imkan verməməkdir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Söz azadlığına növbəti zərbə







**Avqustun 24-də Fransada həbs edilən Telegram" və "Vkontakte"nin təsisçisi Pavel Durov Parisdəki istintaq təcridxanasına yerləşdirilib və tezliklə ona qarşı rəsmi ittiham irəli sürüləcək. Müxtəlif mənbələr bildirirlər ki, sahibkarı "Telegram" vasitəsilə terrorizm və narkotik ticarəti ilə mübarizədə Fransa hakimiyyəti ilə əməkdaşlıqdan imtina etdiyinə görə 20 ilə qədər həbs gözləyir.**

Pavel Durovun həbsi insan hüquqlarına və söz azadlığına zərbədir. Amma kolonializm, müstəmləkəçilik siyasətindən əl çəkə bilməyən Fransaya da bu yaraşır. Bir az əvvəl başa çatan "Paris -2024" Yay Olimpiya Oyunlarından öncə jurnalistləri təqib edən, onları həbsə alaraq casusluqda ittiham edən bu ölkə yenə də çirkin əməllərlə məşğuldur.

Bəli, "Teleqram"da bır sıra məqamlar narahatedicidir. Amma insan hüquq azadlıqlarına hörmət, biznes prinsiplərinə riayət olunması tələbi belə repressiv metodlarla tənzimlənməməlidir. Ən azından Qərb özünün bəyan etdiyi prinsiplərə sadiqlik nümayiş etdirməlidir. Bu olmayınca, ABŞ, Aİ hər hansı bir ölkədə bu və ya digər hadisəyə demokratiya və insan hüquqları kontekstində münasibət bildirməkdə haqsız olacaq.

Dünyaya insan hüquqları dərsi keçən Avropa İttifaqı üzv ölkə olan Fransanın bu cür repressiv addımlarına niyə sakit qalır? Aİ niyə açıqlama vermir?

Bəs ABŞ Dövlət Departamenti necə? Azərbaycanda belə hal baş versəydi, artıq bəyanat verməmiş bir Qərb rəsmi dairəsi, institutu qalmamışdı.

Ölkəmizdə bu cür hal baş versəydi, bəzi dövlət və təşkilatlar bir gündə tələblər, şərtlər irəli sürüb notalar vermişdilər.

Əgər demokratiya dəyərlərinə hörmət Qərb tərəfindən meyar kimi müəyyən edilibsə, onda "X" və "Meta" rəhbərliyi də həbs edilməlidirmi?

Durovun həbsi Qərbdə ciddi etirazlarla qarşılanıb. ABŞ-nin Milli Təhlükəsizlik Agentliyinin keçmiş əməkdaşı Edvard Snouden "Telegram"ın təsisçisinin Parisdə saxlanmasını söz azadlığı hüququna qəsd, Fransa və bütün dünya üçün rüsvayçılıq adlandırıb. Bu barədə E.Snouden "X" sosial şəbəkəsindəki səhifəsində yazıb:

"Durovun həbsi əsas insan hüquqlarına, söz və birləşmək azadlığına hücumdur. Fransa prezidenti Emmanuel Makronun şəxsi mesajlara çıxış yolu kimi girovgötürmə səviyyəsinə enməsi məni təəccübləndirir və dərindən kədərləndirir. Bu, təkcə Fransa üçün deyil, bütün dünya üçün rüsvayçılıqdır".

İtaliyanın baş nazirinin müavini, nəqliyyat və infrastruktur naziri Matteo Salvini də Durovun həbs olunmasına qarşı çıxıb. O bunu senzuranın təzahürü hesab edir: "Avropada biz artıq senzuraya, rejimin üfunət iyinə gəlmişik. Yaşasın azadlıq, fikir və söz".

"Rumble" videohostinqinin yaradıcısı Kris Pavlovski "Telegram" messencerinin baş direktoru Pavel Durovun həbsindən sonra Avropa İttifaqını tərk edib. Bu barədə Kris Pavlovski "X" hesabında paylaşım edib. "Mən Avropanı sağ-salamat tərk etdim", - deyə paylaşımda qeyd edilib.

Onun sözlərinə görə, Fransa hakimiyyəti videohostinq saytını hədələyib və indi söz azadlığını məhdudlaşdırmadığına görə "Telegram"ın qurucusunu həbs etməklə qırmızı xətti keçib.

Amerikalı milyarder, "X", "Tesla", "SpaceX" şirkətlərinin sahibi İlon Mask Pavel Durovun Fransada həbsinə münasibət bildirib. İlon Mask bu barədə özünün "X" sosial şəbəkəsindəki hesabında paylaşım edib. O, Pavel Durovun müsahibələrindən birini paylaşaraq "Paveli azad et" şərhini yazıb və onun azad edilməsi üçün çağırış edib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Ermənistanın silahlandırılması sülh üçün zaman itkisidir

**"Vətən müharibəsindəki qələbəmiz, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması bölgədə yeni siyasi mənzərə formalaşdırıb. Artıq gündən-günə güclənən, bütün sahələrdə inkişaf edən Azərbaycan yeni dönəmdə qlobal anlamda nüfuzunu artırır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar İskəndərov deyib. Deputat bildirib ki, Azərbaycan qalib tərəf olmasına baxmayaraq, sülh müqaviləsinin imzalanması, regionda tərəqqinin olması üçün bütün vacib real addımları atır. 2020-ci il üçtərəfli Bəyanatın qəbul olunması, dəfələrlə bütün platformalarda Azərbaycan və Ermənistan arasında danışıqların getməsinə baxmayaraq, təəssüf ki, məğlub ölkə hələ də bu və ya digər yollarla sülh müqaviləsi bağlanmasını uzadır. Səbəblər isə müxtəlifdir. "Əvvəla, digər qüvvələr və ölkələr Ermənistana vədlər verərək, onu Azərbaycanla sülhə gedən yoldan çəkindirməyə çalışırlar. Bölgədə stabilliyin olmasında maraqlı olmayan qüvvələr bununla həm də guya Azərbaycana, hətta Türkiyəyə təzyiq göstərməyi qarşılarına hədəf kimi qoyublar. İkinci məsələ Ermənistanın yüz illərlə etdiyi erməni hiyləgərliyidir ki, onlar zaman qazanmaqla öz xülyaları ilə hansısa optimal günün gələcəyini gözləyir və bundan revanşizm ideyaları ilə heyf çıxmaq və Azərbaycanın azad etdiyi torpaqları yenidən işğal etmək fikirlərini ağıllarında saxlayırlar. Digər tərəfdən, Ermənistanın daxilindəki revanşistlər, xaricdə olan lobbi institutları indiki hakimiyyətə təzyiq göstərirlər", - deyə o əlavə edib.

Hazırda Ermənistanın ABŞ, Hindistan, Fransa, Yunanıstan və digər bir neçə ölkənin səyi ilə sürətlə silahlandırıldığını diqqətə çatdıran deputat bildirib ki, məqsəd bölgədə daimi sülhün əldə olunmaması, bununla da Azərbaycana qarşı təzyiq rıçaqlarını əldə saxlamaqdır. Bütün bu məsələlər Azərbaycanın inkişafına heç bir təsir göstərə bilmir və bilməyəcək. Ölkəmiz inkişaf yolundadır. Sürətlə silahlanan Ermənistan anlamalıdır ki, hansı silahı almasından asılı olmayaraq, lazım gələrsə Azərbaycanın legitim mişeninə çevriləcək və onlar da Vətən müharibəsində, antiterror tədbirlərində olduğu kimi, darmadağın ediləcəklər.

V.İskəndərov vurğulayıb ki, Azərbaycan artıq müharibə istəmir, qan tökülməsinin tam əleyhinədir: "Regionda sülhün bərqərar olması üçün bütün vacib addımları atıb və bu gün də onun üçün real, rasional addımlar atmaqdadır. Ermənistanın silahlandırılması onu təmin edən tərəflərə heç bir fayda gətirməyəcək. Bu, yalnız zaman itkisidir və hər keçən gün Ermənistanın ziyanına işləyir".

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## SOCAR-ın Ukraynaya yox, Ukraynanın SOCAR-a ehtiyacı var

### Ağıllı adam oturduğu budağı kəsmir

**Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra yaxın münasibətlər qurduğu ölkələrdən biri də Ukraynadır. SSRİ dağıldıqdan sonra bu iki keçmiş müttəfiq respublika arasında əksər sahələr üzrə qarşılıqlı fayda verən əməkdaşlıq mövcuddur.**

Azərbaycan həmişə Ukraynanın ərazi bütövlüyünü tanıyıb və dəfələrlə bunu ən yüksək səviyyədə bəyan edib. 2 ilyarımdan çox davam edən Rusiya-Ukrayna müharibəsində də ölkəmiz humanitar yardımlarla Ukraynanın köməyinə gəlib və bu gün də belədir. Xüsusən Ukraynanın qarşılaşdığı enerji problemlərini həll etmək üçün Azərbaycan əlindən gələni əsirgəmir. Müharibə nəticəsində ziyan dəyən mülki əhaliyə ən çox humanitar yardım göstərən ölkələrdən biri də Azərbaycandır.

Məlumdur ki, Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana son səfəri zamanı iki ölkə arasında bir sıra iqtisadi münasibətləri özündə ehtiva edən müqavilələr imzalanıb. Onlardan biri də SOCAR-la Rusiyanın "Qazprom" şirkəti arasında imzalanan sənəddir. Azərbaycan müstəqil ölkədir və onun apardığı xarici siyasət də tam müstəqildir. Yəni ölkəmiz xarici siyasəti yalnız milli maraqlara uyğun aparır. Bunun üçün kimdənsə icazə almır, qəbul etdiyi qərarların hansısa üçüncü dövlətin istəyinə uyğun gəlib-gəlməməsi ilə maraqlanmır. Bu baxımdan iki şirkət arasında bağlanan və yalnız iqtisadi maraqları əhatə edən sözügedən müqaviləyə Ukraynanın bəzi qüvvələrinin isterika ilə yanaşması başadüşülən deyil.

Qəribəsi odur ki, Rusiya tərəfindən böyük bir ərazisinin ilhaq olunmasına baxmayaraq, "Qazprom" hələ də Ukrayna üzərindən Avropaya təbii qaz nəql edir. Üstəlik, tranzit haqqı kimi Ukraynaya vəsait də ödəyir. Üstəlik, məlum olduğu kimi, Ukrayna tərəfi Kursk ərazisindəki Sudja qaz nəqli stansiyasını hərbi nəzarətə götürsə də, Avropaya qazın nəqlini dayandırmayıb. Bu o deməkdir ki, Ukraynadakı bəzi həmin dairələr özlərinə rəva bildiyini Azərbaycana rəva görmək istəmirlər.

Belə məntiqsiz, beynəlxalq hüquq və qaydalara uyğun olmayan hərəkətin arxasında hansı məqsədlərin durduğu məlumdur. O da aydındır ki, Ukraynanın bəzi dairələrinin həmin addımı ilk növbədə Ukraynanın özünə ziyandır. Onlar unudurlar ki, bu gün "SOCAR Ukraine" törəmə şirkəti bu ölkədə yanacaq satışı üzrə ən böyük vergi ödəyicisidir. "SOCAR Ukraine" həm də işçilərinə görə ən çox vergi ödəyən ikinci şirkətdir. Buna görə "sağ ol" demək əvəzinə, Azərbaycana qarşı mətbuatda çirkin təbliğat aparmaq, yumşaq desək, ədalətsizlikdir. Ədalətsizlikdir həm də ona görə ki, Ukrayna hakimiyyəti Azərbaycana qarşı aparılan bu kampaniyanı sükutla izləyir, halbuki onun bəzi bu kimi məsələlərdə ən radikal addımlar atdığının şahidi oluruq.

Azərbaycan heç bir ölkənin, o cümlədən Ukraynanın xarici siyasətinə qarışmır, hətta bəzən buna zərurət yaransa da. Məsələn, Xocalı soyqırımında birbaşa iştirak etmiş Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan illər öncə Ukraynada təntənəli şəkildə qarşılananda da, İkinci Qarabağ müharibəsində Ermənistan tərəfindən dinc şəhər və kəndlərimiz bombardman ediləndə və mülki sakinlərimiz qətlə yetiriləndə də Ukraynanın susqunluğuna Azərbaycan etiraz etmədi. Çünki biz bunu özümüzə dost bildiyimiz Ukraynanın daxili işi hesab edirdik.

Yeri gəlmişkən qeyd edək ki, Ukraynanın "Neftoqaz" şirkətinin baş direktoru Aleksey Çernişov yerli nəşrə verdiyi açıqlamada bildirmişdir ki, onun ölkəsi Rusiyanın "Qazprom" şirkəti ilə imzalanan 5 illik müqaviləni ilin sonunda yeniləmək fikrində deyil. Baş direktor alternativ kimi SOCAR-la anlaşmaq niyyətində olduğunu demişdir.

Göründüyü kimi, SOCAR-ın Ukraynaya yox, Ukraynanın SOCAR-a ehtiyacı var. Belə olan halda çətin günlər yaşayan Ukraynanın oturduğu budağı kəsmək istəməsini necə başa düşək? Axı, ağıllı adam bunu etmir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Ermənistan kimə güvənir?

### Qərb məğlub ölkəni silahlandırmaqla İrəvanı məhvə aparır

**Regionda sülhün, təhlükəsizliyin bərqərar olması istiqamətində bütün danışıqlarda iştirak etməklə yanaşı, həmçinin əməli addımlar atan Azərbaycandan fərqli olaraq Ermənistanın "fəaliyyəti" bu ölkənin sülhdən yayındığını açıq-aydın göstərir.**



Sülh müqaviləsinin bağlanmasını sözdə ən prioritet məsələ hesab edən beynəlxalq qurumlar, böyük dövlətlər isə yenə də ikili oyun oynayırlar.

Əvvəlcə ABŞ tərəfi Ermənistanın silahlandırılması ilə bağlı yayılan məlumatı təkzib etsə də, "Caliber.az" saytının yaydığı videogörüntülər bunu bir daha təsdiqlədi. Belə ki, "Flightradar" qlobal uçuş izləmə xidməti vasitəsi ilə əldə edilən görüntülərdən aydın şəkildə bilinir ki, 2-3 avqustda ABŞ-nin Rumıniya və Yaxın Şərqdəki hərbi bazalarından Ermənistanın Zvartnots hava limanına 2 hərbi təyyarə qalxır. ABŞ Silahlı Qüvvələrinə məxsus "Boeing C-17" hərbi yük təyyarəsi ilə şəxsi heyət hərbi yüklə birlikdə Zvartnots hava limanına gətirilir. Daha sonra ABŞ hərbi yük təyyarələri ilə Ermənistana külli miqdarda silah-sursat gətirilib. Bu silahların yerli relyef və hərbi şəraitə uyğunlaşdırıldığı da bildirilir.

Məlum oldu ki, son bir neçə həftə ərzində Fransanın 155 mm-lik SEZAR özüyeriyən artilleriya qurğuları və onların komponentləri, həmçinin tank əleyhinə raket kompleksləri və "hava-hava" tipli raketləri Ermənistana çatdırılıb. O da bildirilir ki, Rusiya-Ukrayna müharibəsinin əvvəlində Fransa ordusunun balansında cəmi 76 SEZAR qurğusu olub və onun bir diviziyası (12 ədəd) Ermənistana göndərilib. Bundan əlavə, Ermənistan ordusunun sərəncamına onlarca R511 və R530 "hava-hava" tipli raketlər, 30 ERYX tank əleyhinə raket, Almaniya istehsalı olan DM32 qumbaraatanları və "Panzerfaust 3" tank əleyhinə sistemləri verilib. Ermənistana həmçinin Fransa istehsalı olan 500-ə yaxın birdəfəlik "Apilas" reaktiv yaylım atəşi sistemləri və Amerikanın 50 ədəd BGM71-TOW tank əleyhinə raket kompleksləri də göndərilib.

Hərbi ekspertlərin fikrincə, R511 və R530 "hava-hava" tipli raketlər müvafiq modifikasiyalardan sonra Ermənistandakı Su-30 SM qırıcılarında quraşdırılacaq. Məlumatda bildirilir ki, Hindistanda belə modifikasiyalar üçün presedentlər var və ola bilsin ki, uyğunlaşma prosesi müvafiq təcrübəyə malik hindistanlı hərbi mütəxəssislər tərəfindən aparılacaq. Onu da qeyd edək ki, Ermənistana göndərilən silahlar arasında Almaniya və ABŞ silahlarının olması xüsusilə diqqət çəkir.

Bu silahların Ermənistana çatdırılması faktı onu göstərir ki, Almaniya və ABŞ fransızlara müvafiq icazələr verib. Çünki təsdiq proseduru olmadan Almaniya və ABŞ silahları Ermənistan ordusunun sərəncamına göndərilə bilməzdi. ABŞ-nin Ermənistanın hərbiləşdirilməsində bilavasitə iştirak etməsi məlum idi.

Silahların Ermənistana çatdırılmasına gəldikdə, "Caliber.az" yazır ki, onlar Fransanın Orli hava limanından İranın Mehrabad hava limanına göndərilir. Oradan isə İranın "Merac" aviaşirkəti silahları birbaşa son təyinat yerinə - Ermənistana çatdırır. Fransa silahları ilə yanaşı, İran "Bəndər-Abbas" limanı vasitəsilə Hindistandan Ermənistana göndərilən hərbi yükləri də qəbul edir.

Azərbaycanla ortaq dəyərləri bölüşən İranın bu prosesdə iştirakı, əlbəttə ki, təəssüf doğurur. Özünü islam dövləti adlandıran İranın Ermənistana dəstəyi müsəlman təəssübkeşliyi ilə bir araya sığmır. Torpaqlarımızın işğal altında olduğu dövrdə Ermənistanın yanında olan, Qarabağ və Şərqi Zəngəzurda islam dəyərlərinin məhv edilməsinə, məscidlərimizdə donuz saxlanılmasına göz yuman, 44 günlük müharibənin nəticələri ilə barışa bilməyən İrandan başqa nə gözləyəsən?

Onu da qeyd edək ki, Ermənistana verilən həm Fransa, həm də Hindistan silahları qismən rəsmi bəyan edilir. Onların əsas hissəsi mülki mallar adı ilə daşınır. Bu, öz növbəsində beynəlxalq ticarət hüququnun və logistika fəaliyyətini tənzimləyən beynəlxalq qaydaların kobud şəkildə pozulmasıdır. Yəni Ermənistana silahların ötürülməsi qaçaqmalçılıqdır.

Ümumiyyətlə, Ermənistan hələ də müharibədən öncə savaş başlayacağı təqdirdə ona "dəstək" olacaqları vədini verib, döyüşlər zamanı kənardan "boylanan" havadarlarının fikirlərinə inanaraq silahlanmadan əl çəkmir. Hər dəfə də "dəmir yumruq"dan ağır zərbə alıb geri çəkildikdən sonra şərböhtana başlayır. Maraqlıdır, görəsən, 30 illik erməni işğalı dövründə bu adamlar niyə danışmırdılar, beynəlxalq qanunları, ədalət prinsipini nədən müdafiə etmirdilər? İndi regionda yaranan yeni reallıqları niyə qəbul etmək istəmirlər?

Bütün bunlar əlbəttə ki, erməni lobbisinin fəaliyyətinin nəticəsidir. Əslində isə regionda təhlükəsizliyin təmin olunmasını istəyən dünya gücləri Ermənistanın hazırda yürütdüyü siyasətin mahiyyətini aydın görməli, onun əsl niyyətini düzgün qiymətləndirməli və İrəvanı sərsəm iddialardan əl çəkməyə məcbur etməklə sülh prosesinə öz töhfələrini verməlidirlər. Amma görünən odur ki, Ermənistan regionda gərginliyin qalmasında maraqlıdır. Bu ab-havanı saxlamaqla, beynəlxalq ictimai rəylə manipulyasiya edir və Azərbaycanı hədəfə gətirməyə çalışır.

Ermənistanın növbəti dəfə silahlandırılmasında isə son məqsədi sülh prosesini ləngitmək, mümkündürsə iflasa uğratmaqdır. Bu ölkə regionda formalaşan yeni arxitekturanı, olduqca pozitiv əməkdaşlıq imkanlarını, inkişafı və təhlükəsizliyi təhdid edir və açılan yeni perspektivlərə zərbə vurmağa can atır. Amma sonda ən böyük zərbəni özü alacaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***




# COP29-a gedən yol çərçivəsində 19-cu tədbir

## Jurnalistlərin qlobal tədbirdə iştirakı müzakirə edilib

**Məlumdur ki, bütün əhəmiyyətli tədbirlər, qlobal toplantılar jurnalistlərsiz keçmir. Belə tədbirlər yalnız jurnalist "süzgəc"indən keçərək cəmiyyətə çatdırılır.**

Bu baxımdan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası da (COP29) istisna olmayacaq. Bu səbəbdən ölkəmizdə xeyli vaxtdır yerli və xarici media nümayəndələrinin iştirakının səmərəli təşkilinin təmin edilməsi üçün hazırlıqlara start verilib. Sessiya media nümayəndələrinə bəşəriyyətin sabahını formalaşdıracaq konstruktiv müzakirələr, əlamətdar qərarlar və dayanıqlı gələcək üçün atılan birgə addımları dünya ictimaiyyətinə çatdırmağa unikal imkan yaradacaq. COP29 Azərbaycan Əməliyyat Şirkətinin verdiyi məlumata görə, tədbirə akkreditə olunmuş jurnalistlər konfrans çərçivəsində media üçün nəzərdə tutulmuş peşəkar məzmun və infrastruktura birbaşa çıxmaqla, yüksəksəviyyəli danışıqları əyani və ya onlayn şəkildə izləmək, konfransın rəsmi proqramını əldə etmək, iqlim dəyişmələri sahəsində elmi və texnoloji yeniliklərdən xəbərdar olmaq kimi bir sıra imkanlardan, eləcə də konfransın rəqəmsal qlobal auditoriya platformasından yararlana biləcəklər. Sessiyanın Yaşıl və Mavi zonalarına giriş imkanı yaradan akkreditasiya ilə jurnalistlər həmçinin tədbir çərçivəsində təşkil ediləcək mətbuat konfransları, brifinqlər və digər media tədbirlərinə qatıla biləcəklər. Onlar üçün tədbir məkanında mətbuat mərkəzləri və media zonaları da yaradılacaq.

COP29-un fəaliyyətə başlayacağı vaxta 2 ay qalıb. Hazırlıqlar çərçivəsində diqqəti cəlb edən təşəbbüslərdən biri "29 iqlim müzakirəsi: COP29-a gedən yol" tədbiridir. Buradakı 29 rəqəmi qlobal konfransın başlayacağı günə kimi iqlim dəyişmələri ilə bağlı Azərbaycanda müxtəlif sahələri əhatə edən 29 tədbirin keçrilməsini nəzərdə tutur. Bu günlər qlobal konfrans çərçivəsində COP29 Sədrliyi və Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı nümayəndəliyi tərəfindən "PAŞA Holdinq" və "Trendyol" şirkətlərinin dəstəyi ilə media üçün effektiv kommunikasiya strategiyalarına həsr olunmuş seminar təşkil edilib. Bu, "29 iqlim müzakirəsi: COP29-a gedən yol" silsiləsindən sayca 19-cu tədbirdir. Seminar yerli medianı COP29 prosesləri ilə daha yaxından tanış etmək və bu mühüm iqlim fəaliyyətinin işıqlandırılması ilə əlaqədar mətbuat nümayəndələrinin peşəkar potensialının artırılması məqsədi daşıyırdı.



Panel müzakirəsi zamanı COP29-un baş danışıqçısı Yalçın Rəfiyev, COP29 Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri, Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova və BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisi Vladenka Andreyeva COP29 Sədrliyinin ambisiyaları artırmaq və fəaliyyətə təkan verən prioritetlər, bu istiqamətdə qoyulan hədəflərin reallığa çevrilməsi üçün atılmalı olan addımlar ətrafında geniş müzakirələr aparıblar. İqlim müzakirələri çərçivəsində səmərəli nəticələrin əldə edilməsinə Azərbaycanın töhfələri, eləcə də COP29-un Bakıda keçirilməsinin ölkəmiz üçün yaratdığı imkanlar da müzakirə mövzusu olub.

Nərmin Carçalova isə Azərbaycanda COP29-un təşkili üçün digər ölkələrlə müqayisədə daha az zaman ayrıldığına baxmayaraq, konfransın qüsursuz və uğurla keçməsi üçün işlərin planlı şəkildə icrasının davam etdiyini bildirib. O, hazırlıq prosesinin gedişatı, eləcə də COP29-un Yaşıl və Mavi zonalarının fəaliyyəti haqqında jurnalistlərə geniş məlumat verib. Medianın iqlim böhranının həllində mühüm rol oynadığını qeyd edən Vladenka Andreyeva media xəbərlərinin məlumatlandırmaq, həvəsləndirmək və təcili tədbirlər görməyə təkan vermək gücünə malik olduğunu vurğulayıb. Əlavə edib ki, jurnalistlər COP29 prosesində iqlim dəyişikliyinin təsirlərinə ən çox məruz qalanların səslərinə səs verməklə onların təcrübələrinin, həll yollarının eşidilməsi və həyata keçirilməsini təmin etməkdə səfərbər olmalıdırlar.

Medianın COP29-da səmərəli iştirakının məqsədi prosesin mahiyyətinin yalnız ətraf mühit və iqlim məsələləri ilə məhdudlaşmadığını ortaya qoymaqla yanaşı, COP-un iqtisadi modelinin müəyyənləşdirildiyini mediada işıqlandırmaqdır. Bu baxımdan müfəssəl ictimai rəyin formalaşdırılmasında medianın üzərinə düşən məsuliyyət və onun əvəzsiz roluna, COP29-un gündəmə gətirdiyi mövzuların dəqiq və ətraflı işıqlandırılmasının vacibliyinə Nigar Arpadarai diqqət çəkib.

Məlumdur ki, baş verən hər hansı böhran vəziyyətinin, insidentin cəmiyyətə çatdırılmasında medianın rolu əvəzsizdir. Bu hallarda jurnalist tərəfindən faktlara əsaslanan düzgün məlumatların yayılması dezinformasiya və manipulyasıyaların qarşısına sədd çəkir, cəmiyyətin yanlış tərəfə deyil, doğru səmtə istiqamətləndirilməsinə əhəmiyyətli təsir göstərir. Ona görə də COP29-u işıqlandıran jurnalistlər peşəkarlığı və savadı ilə seçilməlidirlər ki, obyektiv informasiyalarla, təhlillərlə cəmiyyətə təsir edə bilsinlər. Əsasən də COP-un nə olduğunu, iqlim dəyişmələrinin fəsadları ilə bağlı planetdə baş verənlər haqqında geniş məlumata malik olmalı, onların aradan qaldırılması üçün dünya dövlətlərinin apardığı mübarizənin hansı effekt verdiyini yaxşı bilməlidirlər. Bütün bu deyilənlər COP29-a hazırlıqlar çərçivəsində adıçəkilən tədbirdə bir daha diqqətə çatdırılıb.

Xatırladaq ki, hələ bir neçə ay əvvəl COP29-un işıqlandırılmasında fəal iştirak edəcək ingilisdilli jurnalistlər üçün də təlim proqramı keçirilmişdi. Bu, Medianın İnkişafı Agentliyinin və ADA Universiteti İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə COP29-un işıqlandırılmasında aktiv iştirak edəcək ingilisdilli jurnalistlər üçün silsilə təlimlər çərçivəsində "Dayanıqlı inkişaf və iqlim dəyişikliyi media perspektivində" tədbiri idi. İngilis dilində təşkil olunan təlimdə bərpaolunan enerji, iqlim dəyişikliyi məsələləri və dayanıqlılıq üzrə ixtisaslaşmış kommunikasiya mütəxəssisi Nik Mediç media nümayəndələri ilə geniş fikir mübadiləsi apararaq tədbirin qlobal yönümdə işıqlandırılacağına əminliyini vurğulamışdı.

Bu gün medianın COP29-a hazırlıqları ilə bağlı aparılan tədbirləri deməyə əsas verir ki, indiyə kimi jurnalistlərin qlobal tədbirdə iştirakının təmin edilməsi istiqamətində görülən işlər müsbət nəticəsini verməkdədir. COP29-la bağlı media nümayəndələrinin müxtəlif istiqamətlərdə əldə etdikləri məlumatlar, informasiyalar, elmi bilgilər gələcəkdə tədbirin işıqlandırılmasında əhəmiyyətli rol oynayacaq.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## COP29-la bağlı 15 saxta informasiya resursu aşkarlanıb

**Dövlət tərəfindən informasiya təhlükəsizliyinə məsul qurum olan Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti COP29-un idarəetmə mərkəzi ilə birgə informasiya təhlükəsizliyinin gücləndirilməsi və kiberhücumların qarşısının alınması istiqamətində müvafiq tədbirlər həyata keçirir və nəzarəti gücləndirir.**

Qurumdan AZƏRTAC-a verilən məlumata görə, xidmət tərəfindən hazırda COP29 tədbiri ilə bağlı müxtəlif hədəfli saxta resursların yaradılması müşahidə olunur, onlardan bir qismi informasiya manupulyasiyasına hədəflənmiş resurslar olsa da, bir çoxu kiberdələduzlar tərəfindən yaradılmış saxta resurslardır. Belə ki, kiberdələduzlar qeydiyyat, eləcə də tədbir çərçivəsində müxtəlif iş yerlərinin açılması ehtimalından sui-istifadə edərək, müxtəlif biznes və məşğulluqyönümlü platformalarda COP29-la bağlı açılan iş yerləri barədə sosial şəbəkələrdə saxta məlumatlar yerləşdirməkdədirlər.

Bu günə qədər COP29-un təhlükəsizlik idarəetmə mərkəzi ilə birgə 15 saxta informasiya resursu aşkarlanıb və ölkə üzrə bloklanması təmin edilib.

"Vətəndaşları yalnız rəsmi mənbələr tərəfindən verilən məlumatlara inanmağa çağırır, müxtəlif sosial şəbəkələrdə yayılan saxta və yalan məlumat əsaslı kampaniyalara qarşı diqqətli olmağa səsləyirik", - deyə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən bildirilib.

# Bakı iqlim dəyişikliyi ilə mübarizədə dünyanı həmrəyliyə səsləyəcək

**İqlim dəyişikliyi XXI əsrin ən böyük problemlərindən biridir. İstixana qazlarının atmosferdəki konsentrasiyasının artması nəticəsində meydana gələn istixana (parnik) effekti, yəni günəşin istilik enerjisinin xeyli hissəsinin Yer üzərində tutulması, qlobal istiləşmə ekosistemlərdə, insan sağlamlığında və iqtisadiyyatlarda ciddi fəsadlar yaratmaqdadır.**

Bəşəriyyətin həmin böhranla mübarizə aparmaq və onun dağıdıcı təsirlərinin qarşısını almaq üçün 2100-cü ilədək qlobal temperatur artımını $2^{0}$C altında saxlamaq kimi vacib məqsədi var. Bu məqsədə çatmaq üçün Paris İqlim Sazişi qlobal istiləşməni sənayedən əvvəlki səviyyədən maksimum 1,5°C-yə qədər məhdudlaşdırmağı nəzərdə tutur.

### Yer kürəsinin qlobal probleminə Cənubi Qafqazdan baxış

Təbii ki, bəşəriyyəti təhdid edən qlobal iqlim dəyişikliyi ilə mübarizədən qalib ayrılmaq tək bir ölkənin bacaracağı, nailiyyət əldə edə biləcəyi iş deyil. Bunun üçün bütün ölkələrin həmrəyliyi və üzərilərinə düşən öhdəliyi yerinə yetirmələri olduqca vacibdir. Bu məqamda xüsusilə qeyd etmək lazımdır ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyaları (COP) böyük əhəmiyyət daşıyır. Hər il dünya ölkələri bir araya gələrək planetdə canlı aləmi təhdid edən bəlaya qarşı effektiv mübarizə üçün müzakirələr aparır, təkliflər irəli sürür, öhdəliklər müəyyən edirlər. Hər il bir ölkədə keçirilən COP tədbirlərinə bu il Azərbaycan evsahibliyi edəcək. Sayca 29-cu sessiyanın keçiriləcəyi Bakı şəhəri təxminən iki həftə ərzində iqlim dəyişikliyi ilə mübarizədə həmrəylik üçün mühüm platforma rolunu oynayacaq.

Azərbaycan Texniki Universitetinin Enerji effektivliyi və yaşıl enerji texnologiyaları kafedrasının müdiri Ramiz Kəlbiyev AZƏRTAC-a bildirib ki, qlobal dünyanın tərkib hissəsi olaraq iqlim dəyişmələrinin fəsadları ilə üzləşən Azərbaycanın belə mötəbər tədbirə evsahibliyi etməsi heç də təsadüfi deyil. Belə ki, ölkəmiz dünya düzəninə müsbət toxunuşlar etməyə cəhd edən, ekoloji prosesləri müsbətə doğru dəyişməyə çalışan azsaylı ölkələr sırasındadır. Ölkəmiz metan emissiyalarının azaldılması üzrə öhdəliyi dövlətlərin könüllü qəbul etməsini nəzərdə tutan Qlobal Metan Öhdəliyi təşəbbüsünə qoşulub və 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payının 30 faizə çatdırılmasını hədəf kimi müəyyənləşdirib. Həmçinin Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilədək istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləyib. Azərbaycan Prezidentinin sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi isə COP29 beynəlxalq tədbirinə verilən dəyərin, o cümlədən yaşıl və sağlam gələcək naminə atılan addımların bariz nümunəsidir.

### Əsas hədəf: Qlobal temperatur 2100-cü ilədək $2^{0}$C altında saxlanılmalıdır



İqlim dəyişikliyinin qlobal temperaturun artmasına, buzlaqların əriməsinə, dəniz səviyyəsinin qalxmasına, anomal hava şəraitlərinə və bioloji müxtəlifliyin azalmasına səbəb olduğunu deyən Ramiz Kəlbiyev fikirlərinə belə davam edib: "İqlim dəyişikliyi eyni zamanda qlobal ərzaq təhlükəsizliyini təhdid edir və su resurslarının azalmasına gətirib çıxarır. Əgər həmin proses nəzarətsiz qalarsa, bəşəriyyətin və Yer kürəsinin gələcəyi üçün fəlakətli nəticələr qaçılmaz olacaq".

Onun sözlərinə görə, 2015-ci ildə qəbul edilən Paris İqlim Sazişi iqlim dəyişikliyinə qarşı qlobal mübarizənin əsas hüquqi çərçivəsini təşkil edir. Sazişin əsas məqsədi, qlobal istiləşmənin sənayedən əvvəlki səviyyədən 2°C-dən çox artmasının qarşısını almaq və həmin artımı 1,5°C ilə məhdudlaşdırmaqdır. Bunun üçün ölkələr öz milli iqlim planlarını (Nationally Determined Contributions - NDCs) hazırlayır və həmin planlar çərçivəsində istixana qazı emissiyalarını azaltmaq, enerji səmərəliliyini artırmaq, bərpaolunan enerji mənbələrinə (BOEM) keçid etmək və meşəlik əraziləri qorumaq üzrə öhdəliklər götürürlər. Ölkəmizdə BOEM istifadə olunmaqla nəhəng layihələr həyata keçirilir.

Paris İqlim Sazişi inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında məsuliyyətin bölüşdürülməsi məsələsinə xüsusi diqqət yetirir. Saziş hər bir ölkənin iqlim dəyişikliyinə töhfəsini və onu azaltmaq üçün fərqli imkanlarını nəzərə alaraq ədalətli keçidin təmin edilməsini tələb edir. İnkişaf etmiş ölkələr maliyyə və texnologiya sahələrində inkişaf etməkdə olan ölkələrə dəstək verməyi öhdəlik kimi qəbul ediblər.

Mütəxəssis qeyd edib ki, sazişin uğurla həyata keçirilməsi üçün bir neçə əsas strategiya var. İlk növbədə istixana qazı emissiyalarının azaldılması və karbon neytrallığının təmin edilməsi prioritetdir. Bununla yanaşı, bərpaolunan enerji mənbələrinin istifadəsinin artırılması və enerji səmərəliliyinin təkmilləşdirilməsi vacibdir. Eyni zamanda karbon tutulması və saxlanması (CCS) texnologiyalarının inkişaf etdirilməsi, meşəlik ərazilərin qorunması və yenidən meşələndirilməsi tədbirləri də mühüm rol oynayır.

Qısacası, 2100-cü ilədək qlobal temperaturun $2^{0}$C altında saxlanılması iqlim dəyişikliyi ilə mübarizədə dünya ictimaiyyətinin əsas hədəfidir. Paris İqlim Sazişi həmin məqsədin reallaşdırılması üçün qlobal səviyyədə ortaq fəaliyyətlərin həyata keçirilməsini təmin edir. İqlim dəyişikliyi ilə mübarizədə uğur qazanılması yalnız həmin strategiyaların effektiv şəkildə həyata keçirilməsi və bütün ölkələrin ədalətli və bərabər şəkildə məsuliyyət götürməsi ilə mümkün olacaq. Həmin məqsədə çatdıqda bəşəriyyət daha sağlam, davamlı və təhlükəsiz bir gələcək qura biləcək. Respublikamız da həmin sahədə böyük irəliləyiş əldə edib. Günəş, külək enerjisi sahəsindəki layihələrin həyata keçirilməsi bunun bariz nümunəsidir.

### Məqsədə çatmaq üçün beynəlxalq əməkdaşlıq, texnoloji inkişaf və sosial dəyişikliklər lazımdır

ADA Universitetinin müəllimi, "yaşıl enerji" üzrə ekspert Orxan Kərimzadə də mövzu ilə bağlı fikirlərini bölüşüb. Onun sözlərinə görə, iqlim dəyişikliyi mövzusunda qlobal temperaturun 2100-cü ilə qədər $2^{0}$C altında saxlanılması insanlığın gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir. Paris İqlim Sazişi ilə razılaşdırılan həmin hədəf dünyadakı bütün ölkələrin diqqət mərkəzindədir. Hədəfə nail olmaq üçün qlobal səviyyədə fəaliyyətlər intensivləşdirilməli və hökumətlər, korporasiyalar, qeyri-hökumət təşkilatları ilə yanaşı, fərdi vətəndaşlar da həmin prosesi dəstəkləməlidir. Ancaq həmin hədəfin niyə vacib olduğunu və sadə vətəndaşların həyatına necə təsir göstərə biləcəyini aydınlaşdırmaq çox mühümdür.

Həmsöhbətimiz qeyd edib ki, bəzi insanlar üçün iqlim dəyişikliyi abstrakt problem kimi görünə bilər. Bununla belə $2^{0}$C hədəfinin niyə bu qədər əhəmiyyətli olduğunu başa düşmək həm fərdi, həm də kollektiv səviyyədə daha çox addım atmağa ilham verə bilər. Qlobal temperatur $2^{0}$C-dən yuxarı qalxarsa, ekstremal hava hadisələri, o cümlədən daşqınlar, quraqlıqlar, məhsul itkisi və digər ciddi iqlim problemləri də artacaq. Bu, yalnız ekosistemlər üçün deyil, həm də iqtisadiyyat üçün böyük təhdidlər yaradacaq. Su ehtiyatları tükənə, qida təhlükəsizliyi pozula, bir çox regionda isə məcburi köçkünlük halları arta bilər. Həmin problemlərin qarşısını almaq üçün qlobal temperaturun $2^{0}$C altında saxlanılması məqsədi strateji və vacib addımdır.

Bu istiqamətdə sadə vətəndaşların məlumatlandırılması və maarifləndirilməsi çox vacibdir. İqlim dəyişikliyinin təsirlərini azaltmaq üçün hər bir insanın rolu olduğunu vurğulamaq, onlara enerji səmərəliliyi, su ehtiyatlarının qorunması, tullantıların azaldılması və təkrar emal kimi gündəlik fəaliyyətlərdə iştirak etməyin əhəmiyyətini izah etmək lazımdır. Bununla yanaşı, iqlim dəyişikliyinə uyğunlaşmaq və davamlılıq yaratmaq üçün milli səviyyədə strategiyalar hazırlanmalı, enerji sektorunda təmiz texnologiyaların istifadəsi genişləndirilməli və istixana qazı emissiyalarının balansını təmin etmək üçün daha effektiv tədbirlər görülməlidir.

"İqlim dəyişikliyinin təsirlərinə qarşı davamlılığı yaratmaq yalnız hökumətlər və böyük təşkilatların üzərinə düşən bir məsuliyyət deyil", - deyən Orxan Kərimzadə onu da əlavə edib ki, bu, cəmiyyətin hər bir fərdinin dəstəkləyəcəyi kollektiv səydir. Qlobal istiləşməni $2^{0}$C altında saxlamaq üçün beynəlxalq əməkdaşlıq, texnoloji inkişaf və sosial dəyişikliklər lazımdır. Bu hədəfin əhəmiyyətini başa düşmək və sadə vətəndaşların gündəlik həyatlarında həmin məqsədlərə uyğun hərəkət etmələri uzunmüddətli olaraq iqlim dəyişikliyi ilə mübarizədə qələbə qazanmağın açarıdır.

### Kiçik addımlarla böyük nəticələrə səbəb ola bilərik

Göründüyü kimi, qlobal temperaturun $2^{0}$C yuxarı qalxması ətraf mühitin bütün komponentlərinə mənfi təsir göstərəcək ki, bu da planetdə canlı aləmin mövcudluğunu təhlükə altında qoyacaq. Odur ki, cəmiyyət olaraq, fərd olaraq ən kiçik addımlarla böyük nəticələrə, müsbət dəyişikliklərə səbəb ola bilərik. Bakının evsahibliyi edəcəyi COP29 tədbiri də məhz hər birimizin dünyamız üçün ata biləcəyi addımları önə çıxarmaq və birgə mübarizəmizin qələbəsini aşılamaq məqsədi daşıyır. Sevindirici haldır ki, bir neçə aydan sonra hər kəs problemlərə Azərbaycanın gözü ilə baxacaq, proqnozlaşdırılan təhlükələrə qarşı mübarizədə planet sakinlərinə ölkəmizdən çağırışlar ediləcək. Odur ki, bu il nəhəng ölkələrin, dünya ictimaiyyətinin Yer kürəsini gələcək bəlalardan xilas etməsi üçün Azərbaycanı mərkəz seçməsi hər birimizin məsuliyyətini daha da artırır.

# REGİONLAR

## Şəhid və qazi övladlarının Qubaya səfəri təşkil olunub



**Sumqayıt bələdiyyəsinin təşkilatçılığı ilə bir qrup sumqayıtlı gəncin Qubaya səfəri təşkil edilib. Şəhid və qazi ailələrinin uşaqlarından ibarət 50 nəfərlik qrup rayonun görməli yerlərində olub.**

Yaşıllıqlar qoynunda istirahət edən məktəblilər təbiətlə yaxından təmasdan əlavə, yeni dostlar qazanmaq, interaktiv oyunlar oynamaq fürsəti əldə ediblər. Sonra onlar Quba Soyqırımı Memorial Kompleksinə, bir sıra dağ kəndlərinə səfər edərək tariximiz və mədəniyyət nümunələri ilə tanış olublar. Məktəblilər səfərdən məmnunluqla geri dönüblər.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Şəmkirdə könüllüyə könül verənlər çoxdur

**Şəmkirdə ictimai-siyasi tədbirlərdə könüllü kimi fəaliyyət göstərən və bu işə yeni qoşulan gənclərlə görüş keçirilmişdir.**

Görüşdə rayon icra hakimiyyətinin başçısı çıxış edərək diqqətə çatdırmışdır ki, bu gün Şəmkirdə gənclərin potensialından daha səmərəli istifadə etmək və könüllülük hərəkatını inkişaf etdirmək məqsədilə çoxsaylı tədbirlər həyata keçirilir. Gənclərin könüllü kimi fəaliyyətinə şərait yaradılır, onlara praktik biliklərini artırmaları, yaradıcı və innovativ potensialını üzə çıxarmaları üçün dəstək verilir, işgüzarlıqları, bilik və bacarıqlarını artırmalarına, dünyagörüşlərini genişləndirmələri üçün müxtəlif layihələr həyata keçirilir.

RİH-in başçısı çıxışında könüllülərin fəaliyyət istiqamətləri, gələcək layihələr, xüsusilə gənclərlə bağlı həyata keçirilən proqramlar barədə də görüş iştirakçılarına ətraflı məlumat vermişdir.

Çıxış edən könüllülər icra hakimiyyətində böyük təcrübə və səriştə qazandıqlarını, bu təcrübənin onların gələcək əmək fəaliyyətləri dövründə kömək edəcəyinə əminlik ifadə etmişlər.

Sonda könüllülük fəaliyyətlərini başa vuran gənclərə xüsusi sertifikatlar təqdim edilmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Səsimizin çatdığı, ünümüzün yetdiyi Vətən

## İndi qarabağlı və şərqi zəngəzurlu olmaq ikiqat şərəflidir

**Çoxdan idi ki, işğaldan azad edilmiş torpaqlarımızı ziyarət etmək istəyirdik. Nəhayət, istəyimizə çatmaq üçün fürsət tapdıq. Yolumuza Ağdamdan - vaxtilə çal-çağırlı, bağ-bağatlı, qaynar həyatlı, insanları qoçaq, mehriban, qonaqpərvər Ağdamdan başladıq.**

Sonuncu dəfə bu şəhərdə hardasa 28 yaşımda olmuşdum. Yaddaşımda gözəl, çox gözəl bir şəhər kimi qalmışdı. Məscidini ziyarət etmişdim, Çörək muzeyində olmuşdum, Pionerlər evinə (o vaxt Pionerlər evinin direktoru tanınmış musiqiçi, bəstəkar, Qarabağdan çıxmış neçə-neçə sənətkarın ustadı olmuş Murad Rzayev idi) müsabiqəyə uşaq aparmışdıq. Mən də Tərtərdə eyni adlı məkanda işləyirdim.

Bu yerlərə çox kövrək hisslərlə qədəm basdım, torpağında, hər daşında Azərbaycan əsgərinin ayaq səslərini, güllə vıyıltısını eşitdim, müharibənin gətirdiyi ölümü, fəlakəti, məşəqqətləri gördüm. Dağılan yurd yerləri, şəhid məzarlarının üstündə dalğalanan bayraqlarımız çox kövrəltdi məni. Ancaq aparılan tikinti-quruculuq işlərini gördükcə bir daha Prezidentimiz - Ali Baş Komandanımızla, qəhrəman əsgərlərimizlə qürur duydum.

Əsgəranda dağıntı çox deyil. Ziyarətə gələnlər, təşnə, vətən həsrətlilər isə çoxdur. İnsanlar da, şəhər də çox darıxırmış doğmaları üçün.

Azərbacan ərazisi müdafiə məqsədilə tikilən istehkam və qalalarla zəngindir. Onlardan biri də Əsgəran qalasıdır. Qalanın salınması Qarabağ xanlığının yüksəliş dövrü ilə əlaqəli olub, Dərbənd səddi Şirvanın şimal qapısı idisə, Əsgəran səddi də Qarabağ xanlığının Şərq qapısı idi.

İndi burada da tikinti-quruculuq, təmir işləri aparılır. Qaladan baxanda təbiət də, şəhər də, bütünlükdə doğma Qarabağımız da gözəl görünür.




Xocalıda isə... Bu şəhərdə qulağıma igid oğulların qəhrəmanlığını, əsir düşən qız-gəlinlərin, güllələnən, diri-diri yandırılan, dərisi soyulan, insanlığa sığmayan işgəncələrə məruz qalan, milli mənsubiyyətinə görə öldürülən insanların fəryadı gəldi.

Hələ torpaqlarımız işğal altında olanda bir məqalə yazmışdım. Orada belə bir fikir işlətmişdim: "Xocalı faciəsi azərbaycanlı kişilərinin namusunda bir qara ləkədir. Xocalıların qisası alınmayınca, torpaqlar azad olunmayınca bu qara ləkə təmizlənməyəcək". O vaxt bu fikir bir az ağır səsləndiyi üçün redaktorumuz onu redaktə etmişdi.

Bu gün isə deyirəm: Çox şükür ki, qisas qiyamətə qalmadı. Ata vəsiyyətini yerinə yetirən Prezidentimizin komandanlığı ilə düşmən üzərində şanlı qələbə qazandıq. Bu gün hər bir azərbaycanlı qələbə sevincini doya-doya yaşayır.

Mənim hər iki nənəm şuşalıdır. Amma nə yazıq ki, mən Şuşanı görməmişdim. Nənəmgil XX əsrin əvvəllərində erməni-türk davasında Suşadan gəlib Tərtərdə məskunlaşmışlar. Nənəmin dayıları isə Şuşanın adlı-sanlı bəylərindən olmuşlar. Sarı bəy, Qubad bəy və Hüseyn bəy sovet hökuməti qurulana qədər qalada yaşamışlar, sonra isə qaçaq düşmüşlər. Nə isə... Bu, başqa bir mövzudur.

Nənəmgilin Şuşada olan evi uzun müddət bağlı qaldığı üçün o vaxt uşaq bağçasına verilmişdi. Bunları yazmaqda məqsədim odur ki, mən Şuşanı görməsəm də, orada yaşamasam da, bu şəhəri şuşalılar qədər sevirəm və o, mənə çox əzizdir. Nənəm bizə İsa bulağı, Cıdır düzü, Molla Pənah Vaqif, Şuşanın xanəndələri, ermənilərin xəyanəti haqqında o qədər xatirələr danışardı ki...

Bu da Şuşa şəhəri, qədim qala... Neçə-neçə korifey sənətkarın dünyaya göz açdığı məkan, Pənahəli xanın vətəni, Azərbaycanın musiqi beşiyi, təbiətin xarıbülbül möcüzəsi...

Əvvəlcə Gövhər ağa məscidini, Vaqifin məqbərəsini ziyarət etdik, xan qızı Natəvanı yada saldıq, Bülbülün ev-muzeyindən, Xan Şuşinskidən, Seyid Şuşinskidən danışdıq, tarixi abidələrin bərpası istiqamətində aparılan işlərin şahidi olduq.

Sonra üz tutduq Cıdır düzünə. İlahi, bu nə gözəllik... Bu yerləri qayalara dırmanaraq, əlbəyaxa döyüşlərə çıxaraq, qan tökərək alan Şuşa xilaskarlarına eşq olsun!

İsa bulağına gəldik. Yenə nənəm yadıma düşdü: xəstələnəndə həmişə "Nənə, ürəyin nə istəyir?" soruşanda "Bir stəkan İsa bulağının suyundan içsəm, tez sağalaram" deyərdi. Bulaqdan nənəmin məzarına tökmək üçün su götürdüm. Bu, mənim üçün bir təsəlli idi.

Xankəndi şəhərinin adı onun tarixindən xəbər verir. Qonaq bilib yuxarı başa keçirdiyimiz üzdəniraq qonşularımızı görün harada yaşatmışıq - Azərbaycan xanının saldığı məkanda, layiq olmadıqları yerdə. Onlar da bu saf havanı udub, təmiz suyu içib, nemətləri yeyib harınlayıb, bizə torpaq iddiaları qaldırıblar, ərazilərimizi işğal edib, "Yersiz gəldi, yerli qaç" deyiblər. Amma biz qaçmadıq, güc toplayıb onlara da, onların himayədarlarına, düşmən dəyirmanına su tökənlərə də yerlərini tanıtdıq.

Mərkəzi parkı gəzdik. Mən pianoda çala bilməsəm də, ən azından "Azərbaycan" mahnısını ifa edə bildiyim üçün pianonun arxasına keçdim. İfadan sonra bu mahnını mənə uşaq vaxtı öyrədən xalama rəhmət oxudum.

Şəhərin başqa görməli yerləri ilə də tanış olduq, Qarabağ Universitetinə baş çəkdik. Burada təmir işləri gedirdi.

Xanın məkanı ilə vidalaşıb üz tutduq Laçına. Ruhun şad olsun, Məhəbbət Kazımov! Kaş bu yerlərin azad olunmasını görəydin, o yanıqlı səsinlə Laçında zəngulə vuraydın, Turş suyu dadaydın, Həkəri çayının coşub axmasına baxaydın.

Ulu Öndər Heydər Əliyev Laçının tarixi şəxsiyyətlərinə böyük dəyər verərdi. Soltan bəyin yurdunu düşmən tapdağında qoymaq olardımı?! Qüdrətli Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi ordumuz bununla razılaşardımı?!

Geri dönəndə yolboyu qulağımda Akif İslamzadənin "Bura Vətəndir" mahnısı səslənirdi: "Bura Vətəndir, səsim çatandır, ünüm yetəndir..."

*Svetlana ƏZİZOVA,*
*Tərtər RİH-in İctimai-siyasi və humanitar şöbəsinin baş məsləhətçisi*

# Zəhmət çəkəndə qara torpaq da üz ağardır

**Azərbaycanın iri aqrar sənaye rayonu olan Cəlilabadın iqtisadi göstəriciləri və potensialı haqqında çox yazılıb. Ona görə də birbaşa açıqlanan son rəqəmlərə keçirik.**



Cari ilin 6 ayının nəticələrinə görə, rayon üzrə ümumi məhsul buraxılışının dəyəri 350 milyon manatdan çox olmuşdur. Bunun 37,7 milyon manatı sənayenin, 202 milyon manatı kənd təsərrüfatının, 11,2 milyon manatı tikintinin, 5 milyon manatı nəqliyyat xidmətinin, 1,08 milyon manatı informasiya və rabitə xidmətinin, 9,3 milyon manatı isə ticarət və iaşə xidmətinin payına düşmüşdür.

Bu dövr ərzində rayon üzrə kənd təsərrüfatı məhsullarının istehsalı da artmışdır. Heyvandarlıq, taxılçılıq, kartofçuluq, üzümçülük, çiyələkçilik, bostançılıq və digər kənd təsərrüfatı məhsullarının istehsalı və emalının dəstəklənməsi daim diqqət mərkəzində saxlanılmış, yüksək istehsal göstəricilərinə nail olmaq üçün konkret tədbirlər həyata keçirilmişdir. Rayonun təsərrüfatları 56725 hektarda buğda, 9650 hektarda arpa, 3160 hektarda vələmir, 7890 hektarda noxud, 383 hektarda mərci, 265 hektarda lərgə, 2900 hektarda kartof və 120 hektarda tərəvəz, 91 hektarda qarğıdalı, 291 hektarda günəbaxan əkmişlər. Bütün sahələrdə aqrotexniki işlər vaxtında və yüksək səviyyədə aparılmışdır. Bu hesaba 183 min 222 ton buğda, 25 min 902 ton arpa, 6 min 130 ton vələmir, 8 min 758 ton noxud, 391 ton mərci, 279 ton lərgə, 81 min 760 ton kartof, 957 ton tərəvəz, 320 ton qarğıdalı, 55 ton günəbaxan, 15 min 825 ton çiyələk, 2 min 200 ton üzüm istehsal olunmuşdur.

Heyvandarlığa gəldikdə, rayon üzrə 2,5 min baş inək süni mayalandırılmış, bu yolla 2 min 169 baş bala alınmışdır. Əldə etdiyimiz son statistikaya əsasən, şəxsi və fermer təsərrüfatlarında qaramalın sayı 91 min, davarın sayı 112 min, quşların sayı 566 min baş olmuşdur. Rayon üzrə 6 ayda 5 min 733 ton ət, 29 min 432 ton süd, 14 milyon ədəd yumurta və 220 ton yun istehsal edilmişdir.

Rayonda meliorasiya-irriqasiya işlərinin yaxşılaşdırılması üçün də tədbirlər davam edir. Hesabat dövründə 187 min kubmetr kanal lildən təmizlənmiş, 11 min 310 hektar əkin sahəsi suvarma suyu ilə təmin olunmuşdur.

Bunlar rayonun aqrar sektorunda görülən işlərdir. Onu da qeyd edək ki, bu dövr Cəlilabadın kommunal xidmət sahələri, o cümlədən əhalinin işıq, su ilə təminatı, rabitə xidmətinin yaxşılaşdırılması üçün də tədbirlər həyata keçirilmişdir. Təəssüf ki, rayonun yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı belə sözlər yaza bilmirik. Rayonun 63 kəndinə və yeni yaşayış massivinə qaz xəttinin çəkilməsinin gecikdirilməsini heç cür başa düşmək mümkün deyil. Elektrik təsərrüfatında müəyyən işlər görülməsinə baxmayaraq, problemlər də qalmaqdadır. Təsəvvür edin ki, Cəlilabadın 118 kəndindən 86-sının elektrik hava xətləri və elektrik dayaqları uzun müddət istismar edildiyindən yararsız vəziyyətdədir. Su məsələsinin də tam həll edildiyini söyləmək olmaz. Rayonun 35 inzibati ərazi dairəsi üzrə nümayəndəliyində əkin sahələrinin suvarılması üçün 243 suvarma suyu, 85 kənddə isə subartezian quyusunun qazılmasına ehtiyac var. İçməli su olmadığından əhali uzaq məsafələrdən maşınlarla su gətirməli olur. Bu da hələ hamısı deyil. Rayonda 47 məktəbin yeni binaya, bir sıra iri kəndlərin isə uşaq bağçası-körpələr evinə ehtiyacı var.

Amma hesab edirik ki, həmin problemlərin həll olunması çətin deyil. Sadəcə, əlaqədar qurumların, orada əyləşən məmurların öz vəzifələrinə məsuliyyətlə, dövlət başçısının tələbləri səviyyəsində yanaşmaları lazımdır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Daşkəsəndə əmək yarmarkası: 189 iştirakçı, 200 vakansiya

**Daşkəsəndə rayon icra hakimiyyətinin və Dövlət Məşğulluq Agentliyinin birgə təşkilatçılığı ilə əmək yarmarkası keçirilmişdir.**

Yarmarkanı giriş sözü ilə Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Orxan Abbasov açaraq demişdir ki, ölkəmizdə həyata keçirilən sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır: Dövlət başçısının vətəndaşların məşğulluğunun təmin edilməsinə dair verdiyi tapşırıq və tövsiyələrə Daşkəsən rayonunda əməl olunur və keçirilən bu əmək yarmarkası da bu sahədəki görülən silsilə tədbirlərdən biridir". Əmək yarmarkasının işsiz və işaxtaran sakinlər üçün faydalı olacağına və Daşkəsən rayonunda məşğulluğa müsbət təsir göstərəcəyinə əminliyini ifadə edən RİH-in başçısı yarmarka iştirakçılarına gələcək karyeralarında uğurlar arzulamışdır.

Sonra Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Sadiq Əliyev çıxış edərək əhalinin işlə təminatı itiqamətində agentliyin həyata keçirdiyi layihələr, bu sahədə nəzərdə tutulan işlər, eləcə də əmək bazarına keçid etməyə hazırlaşanlar üçün yaradılan imkanlar və texnoloji yeniliklər barədə ətraflı məlumat vermişdir.

Qeyd edək ki, əmək yarmarkasında 27 işəgötürən tərəfindən 200 vakansiya təqdim edilmişdir. Gəncə-Daşkəsən Regional Məşğulluq filialının Daşkəsən rayon xidmət şöbəsi tərəfindən işsiz kimi qeydiyyata alınmış 189 nəfər əmək yarmarkasında iştirak etmişdir. Yarmarka iştirakçıları aktiv məşğulluq istiqamətləri, müraciət qaydaları, vakansiyalar, iş öhdəlikləri və şərtlər haqqında məlumatlandırılmış, müraciətçilərin CV-ləri qəbul edilərək qeydiyyatı aparılmişdır.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*




## Qaxda bir sinfin bütün məzunları tələbə olublar

**Qax şəhər Namiq Allahverdiyev adına 2 nömrəli məktəb-liseyin $11^A$ sinif şagirdləri rayon üzrə rekord nəticə göstərib - 19 məzunun hamısı yüksək balla ali məktəblərə qəbul olunub.**



Birinci və İkinci Qarabağ müharibəsi günlərində bu məktəbin onlarca yetirməsi döyüşlərə qatılıb. Təhsil ocağı Birinci Qarabağ müharibəsi şəhidi Namiq Allahverdiyevin adını daşıyır. Məktəb-valideyn komitəsinə sədrliyini şəhid Namiq Allahverdiyevin qardaşı Natiq Allahverdiyevin həyata keçirməsi heç də təsadüfi deyil. Çünki Allahverdiyevlər ailəsinin bu təhsil ocağı ilə bir çox mənəvi bağlılığı var.

Ölkədə ən tolerant və multukultural təhsil ocaqlarından olan bu məktəb bütün dövrlərdə şagird və müəllimlərinin uğurları ilə seçilib. Hazırda bu təhsil ocağında 931 şagird təhsil alır. Məktəbin direktoru Aybəniz Məmmədova bildirir ki, gürcü sektorunu bu il bitirən daha 8 məzun da qonşu ölkənin ali məktəblərinə daxil olub.





# Mədəniyyət





Görünməyən qəhrəmanlar

# Saxta partlayışın həqiqi peşəkarı



## 47 ilin pirotexniki Əlibala Məmmədov Vətən savaşına aid filmdə son imzasını qoymaq arzusundadır






**Tamaşaçını təsvir edilən hadisələrin təsirinə sala, inandıra bilmirsə, demək, həmin filmin yaradıcı heyəti məqsədinə çatmayıb. Ekran əsərinin uğurlu alınması isə ayrı-ayrılıqda - rejissordan, ssenaristdən, aktyordan və çəkilişlərdə iştirakı olan digərlərindən asılı deyil. Onların hər biri öz peşəsinə uyğun işlərin öhdəsindən layiqincə gəlməlidirlər ki, əsl sənət nümunəsi yaransın. Baxmayaraq ki, məqsədə, yəni uğura nail olduqdan sonra paylarına düşən şöhrət eyni bölünmür.**

Kino sənətinin xüsusiyyəti də budur, daha çox yada düşən filmin müəllifləri - rejissoru və ssenaristi, baş rolların ifaçıları, bəzən bəstəkarı... olur. Onların adları çəkilir, mükafata layiq görülürlər.

Ən yaxşı filmlərdə də adları titrdə qaçan sətirlərdə yazılanların bir çoxunu isə düşündürən bunlar deyil. Cani-könüldən çalışırlar ki, yaradıcı heyətlə birgə kino xəzinəsinin incisinə çevriləcək ekran əsərləri yaratsınlar. Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının pirotexniki Əlibala Məmmədov da bu fikirdədir ki, kino kollektiv sənətin bəhrəsidir. Burda hər kəsin bir vəzifəsi, bir düşüncəsi olmalıdır: üzərinə düşən işləri peşəkarlıqla görmək...

Ömrünün qırx yeddi ilini bu peşəyə həsr edən kino sənətimizin cəfakeşlərindən biridir Əlibala Məmmədov. Bu kinostudiyada 1977-ci ildə elə pirotexnik kimi fəaliyyətə başlayıb...

### Uşaqlıq və ilk gənclik illərinə yoldaşlıq edən xəyallar...

Əlibala Məmmədov 1957-ci ildə Bakı şəhərində dünyaya gəlib. Sovet dövrü, kommunistlərin dövranı idi... İndi o illəri xatırladıqca gözləri yol çəkir. Asta-asta danışır: "Mən elə məhəllədə böyümüşəm ki, orda azərbaycanlılarla yanaşı, xeyli rus, yəhudi, erməni yaşayırdı. Valideynlərim necə deyərlər, dövrün tələblərini nəzərə aldılar və mən orta məktəbdə rus dilində təhsil almalı oldum. Bakıdakı 19 saylı məktəbdə oxumağa başladım. Sonra təhsilimi 14 saylı məktəbdə davam etdirdim".

Uşaqlıq, ilk gənclik illərinə yoldaşlıq edən xəyallarında neçə-neçə sənətin sahibi oldu. Bir istəkdə qərar tutmur, arzuları dəyişirdi. Əlibala Məmmədov o çağları xoş təbəssümlə yada salır: "Heç özüm də bilmirdim nə istəyirəm. Tankçı görəndə tankçı, kosmonavt görəndə kosmonavt olacağamı deyirdim. Ancaq başqa bir peşə tale yazısı kimi qarşıma çıxdı..."

Bu, ömrünün başqa bir dövrünün - hərbi xidmətdə olduğu illərin xatirələridir. Ancaq Əlibala Məmmədov əvvəlcə rus dilində təhsil aldığı, ana dilində yaxşı danışa bilmədiyi illərə qayıdır: "Mikrorayona köçəndən sonra ana dilimdə danışmağı öyrəndim. Əlbəttə, xarici dilləri öyrənmək vacibdir. Bu şərtlə ki, gərək öz ana dilini mükəmməl biləsən, səlis danışasan, sonra bacarığının yetdiyi qədər digər dilləri öyrənəsən. O, rus dilini yaxşı bildiyinə görə indi də internetdən bu dildə peşəsinə aid, çəkdiyi filmlər üçün faydalı olacaq məlumatlar, eləcə də hərbi texnikaya dair terminləri daha asan axtarıb tapır, oxuyur. Deyir ki, ingilis dilini də yüksək səviyyədə bilsəydi, daha yaxşı olardı: "Çünki bizim peşəmiz elədir ki, standart işlər görmürük. Müxtəlif mövzulu filmlərdə fərqli kadrlar çəkirik. Odur ki, məlumatlı olmalısan, daim yenilikləri izləməlisən. Pirotexniksənsə ilk növbədə özün-özünü öyrətməlisən. Hazırlıqlı olmalısan ki, rejissorlar kadrda necə səhnə qurmaq istəyirlərsə, onu reallaşdıra biləsən".

### Soyuq Moskva günlərinin isti xatirələri...

Xatirələri onu yenidən pirotexnik olmağa sövq edən illərə qaytarır: "Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağırıldım. Altı ay Xarkovda hazırlıq kursu keçib istehkamçı-kəşfiyyatçı oldum. Sonra Qorkidə hərbi xidmətə başladım. Biz Böyük Vətən müharibəsi illərindən qalmış minaları, bombaları axtarırdıq, tapanda zərərsizləşdirirdik. Bir gün mən də daxil olmaqla on nəfər istehkamçı-kəşfiyyatçını Moskva Kinostudiyasına göndərdilər. Bütün SSRİ-də məşhur olan rus aktyoru Vyaçeslav Tixonovun baş rolda oynadığı "Cəbhə arxasında cəbhə" ("Фронт за линией фронта") filmi çəkilirdi".



Moskva Kinostudiyasının Müdafiə Nazirliyinə müraciətinə əsasən, istehkamçı-kəşfiyyatçılar, hərbi hücumdan müdafiə qüvvələri, piyadalar və tank bölmələri çəkilişlərdə iştirak edirdilər. Əlibala Məmmədovun da olduğu istehkamçı-kəşfiyyatçıların işi Moskva Kinostudiyasının pirotexniklərinə kömək etmək idi. Böyük miqyaslı film olduğu üçün işlər həddindən artıq çox olub: "Filmin yaradıcı heyəti gərgin çalışırdı və hərənin öz işləri vardı. Odur ki, pirotexnika ilə bağlı kiçik əhəmiyyətli işləri bizə - istehkamçı-kəşfiyyatçılara gördürürdülər. Təbii ki, briqadir böyük risklər etmirdi. Təhlükəli səhnələr olanda bizə vermirdi. İşlərə çox diqqət göstərdiyimə, verilən tapşırıqlardan qaçmağa, baş girləməyə çalışmadığıma görə briqadir məni fərqləndirirdi".

Möhkəm qar yağmışdı. Moskvanın ətrafı ağappaq örtüyə bürünmüşdü. Çadırlarda qalırdılar. Gənc Əlibala Məmmədov maraq və heyrət içində idi. Hərbi xidmətdə partlayışlar görmüşdü. Orda olanların hamısı - aşkar etdikləri silah-sursatlar da, onların partladılması da real idi. Əlibala Məmmədov danışır: "Biz əsgərlikdə tapılan silahları doğrudan partladırdıq. Kinoda isə hər şey yalandı. Filmdə guya alman faşistləri ilə sovet qoşunları vuruşurdular. İlk dəfə gördüm ki, bombalar, minalar gerçəkdən partladılmır. Bütün diqqət ona yönəldilir ki, kadrlar real kimi görünsün, ancaq iştirakçılar sağ qalsınlar, heç kim xəsarət almasın. Xoşuma gəldi. Biz iki ay kömək etdikdən sonra Moskva Kinostudiyasının əməkdaşlarından ayrıldıq. 1977-ci ildə hərbi xidməti başa vurub Bakıya qayıtdım. Amma mənim üçün o qarlı, soyuq havalarda çəkdiyimiz səhnələr, gördüyüm mənzərələr unudulmaz oldu..."

### Arzulardan həyata...

Moskva Kinostudiyasında tanış olduğu pirotexnik peşəsinə olan böyük marağı onu 1977-ci ildə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasına gətirdi. Kinostudiya rəhbərliyinə müraciət etdi. İşə qəbul olundu. Elə o vaxtdan burada çalışır.

Pirotexnik kimi ilk işi də həmin il "Şir evdən getdi" filmində oldu. Hərbi mövzuda olmadığından çox mürəkkəb səhnələr qurmaq lazım deyildi. Odur ki, tək də işləyə bilərdi. Sonra bir müddət filmlərdə pirotexnik köməkçisi kimi çalışdı. "Sizi dünyalar qədər sevirdim", "Babək" filmlərində köməkçi pirotexnik kimi işlədi. 1988-ci ildə Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutu nəzdində ixtisasartırma kursunda təhsil aldı. 1992-ci ildən əsas pirotexnik kimi fəaliyyət göstərir.

Əlibala Məmmədov "Babamızın babasının babası", "Qətl günü", "Şahid qız", "Tələ", "Fəryad", "Laçın dəhlizi" "Ağ atlı oğlan", "Qaçaq Süleyman", "Yük", "Özgə vaxt", "Güllələnmə təxirə salınır", "Ovsunçu", "Biz qayıdacağıq", "Cavad xan" və digər çoxsaylı filmlərdə pirotexnik köməkçisi və pirotexnik olub. Rusiya istehsalı olan "Dronqo" (2002) serialında pirotexnik kimi çalışıb. 2019-cu ildə Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülüb.

### Pirotexnik təhlükəli peşədir

Hərbi xidmətdə silah-sursatla davranmağı, partlayış törədilməsi və digər işləri yaxşı mənimsəməsinin faydasını çox görüb. Sonralar Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutu nəzdində ixtisasartırma kursunda oxuması və filmdən-filmə qazandığı təcrübələr onu bu sahənin peşəkarı edib. Elə peşəkar olduğu üçün də iş başında hər zaman diqqətli, sərvaxtdır. Çünki bəzən kiçik bir səhv belə insan ölümü ilə nəticələnə bilər. İndiyədək müxtəlif ölkələrdə filmdə müəyyən səhnələrin çəkilməsi üçün qurulmuş bombanın ya vaxtından tez, ya da yanlış yerdə partladılması faciələrə səbəb olub.

Əlibala Məmmədov işlədiyi filmlərdə adətən təhlükəli anın olmadığını bildirir: "Mən çəkilişlərdə öz bildiyim kimi hərəkət edirəm. Bu elə bir sahədir ki, gərək çox diqqətli olasan. Çünki ən kiçik yanlışlıq nəticəsində çox böyük faciələr baş verə bilər".

Pirotexniklərin işinin nəzərə çarpması, tanınması filmdən asılıdır. "Film nə qədər uğurlu alınırsa, ondan danışacaqlar, mənim işim də görünəcək. Əgər film zəifdirsə, onda orda mən lap doğrudan da, bomba partladım, yenə də heç kim əhəmiyyət verməyəcək", - deyir Əlibala Məmmədov.

Azərbaycan kinosunun incilərindən olan "Bəyin oğurlanması" filmindən söz salırıq. Soruşuruq ki, bütün filmlərin çəkiliş prosesində pirotexniki həmişə belə təlaşla axtarırlar, yoxsa bu filmdə belə göstərirlər?

"Bəyin oğurlanması"nda pirotexniklərin təqdimatı müsahibimizi qane etməyib. Dərhal cavab verir: "Yox, filmdə elə göstərirlər. İşlədiyim vaxt mənimlə çox zarafat etsələr, işləyə bilmərəm. Görünür, o dövrün nəsli başqa cür baxırdı bu peşəyə. "Mosfilm"in istehsalı olan "Gitara ilə qız" ("Девушка с гитарой") filmində Yuri Nikulinin çəkildiyi uğursuz pirotexnik rolunda da bunu görmək olar. Nikulin nəsə yandırır, partlayır, deyir ki, bacarıram. Elə olsaydı, filmin çəkilişlərində heç kim sağ qalmazdı. Heç kino da olmazdı. Bəziləri belə baxırlar ki, guya bizim sənətimiz yaradıcı deyil, sırf texniki işdir. Xaricdə bu peşəyə yüksək münasibət göstərirlər".

### Vətən müharibəsindən bəhs edən filmlərin çəkilməsi ən böyük arzusudur

"Hər filmin öz romantikası, öz əhəmiyyəti var" deyir Əlibala Məmmədov. "Hər film həm də canlandırdığı dövrü anladır. "Babək" bir zamanın, "Cavad xan" başqa bir dövrün tarixi hadisələrini əks etdirir... Ancaq "Fəryad" filminin mahiyyəti mənim üçün bambaşqa oldu. Ən çox bəyəndiyim, uğurlu işim də rejissor Ceyhun Mirzəyevin həmin filmidir. Aktyorlar onlara həvalə edən rolu sadəcə oynamırdılar. O zaman hələ təzə olan yaralarımızı, dərdlərimzi bütün qəlbi, ruhu ilə hiss edərək canlandırırdılar".

Ümumiyyətlə, hərbi mövzuda, xüsusilə də müasir döyüş səhnələrinin geniş yer aldığı filmlər çəkmək onun üçün olduqca maraqlıdır. Məsələyə peşəkar pirotexnik yanaşması belədir: "Adətən belə filmlərdə tamaşaçıların həyəcanla izlədiyi döyüş epizodları, qəhrəmanların yaralanması və başqa səhnələr qurulur. Həmin filmlərdə pirotexnikin üzərinə də çox məsuliyyətli işlər düşür".

Ən böyük arzusu Vətən müharibəsindən bəhs edən filmlərin çəkilişlərində iştirak etməkdir. Amma bu, Əlibala Məmmədovun sadəcə peşəsi ilə bağlı, kinoda döyüş səhnələri qurmaq istəyi deyil. Bu arzusuna pirotexnik eyni zamanda mənəvi borc kimi baxdığını söyləyir: "44 günlük Vətən müharibəsində Azərbaycanın igid oğulları rəşadət göstərdilər. Onlar günümüzün real qəhrəmanlarıdırlar. Oğullarımızın hünərləri ilə nə qədər fəxr etsək, öyünsək, azdır. Arzumdur ki, onların rəşadətini layiqincə əks etdirən ekran əsərləri yaradaq".

Bu, kino işçilərinin Azərbaycan torpaqlarını işğaldan azad etmiş, bizi qalib xalq kimi qürurlandırmış qəhrəmanlara həm də minnətdarlığın ifadəsi olar....

*Zöhrə FƏRƏCOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Azərbaycanın mədəni irsi Macarıstanda təbliğ olunur



**Azərbaycan Turizm Bələdçiləri Assosiasiyası Macarıstandakı Azərbaycan Evi ilə birgə Azərbaycan mədəniyyətinin, tarixi və təbii gözəlliklərinin macar auditoriyasına tanıdılması məqsədilə maraqlı bir mədəniyyət təqdimatı təşkil edib.**

Bu silsilə tədbirlər çərçivəsində keçirilən mərasimə Azərbaycan Turizm Bələdçiləri Assosiasiyasının üzvü xanım Török Timea rəhbərlik edib.

AZƏRTAC xəbər verir ki, təqdimatda Azərbaycanın müxtəlif turizm məkanları haqqında ətraflı məlumat verilib və xüsusi olaraq Bakının möhtəşəm memarlığına diqqət çəkilib.

İştirakçılar UNESCO-nun qoruması altında olan İçərişəhərin zəngin irsi, neft baronlarının mirası və müasir memarlıq inciləri - Heydər Əliyev Mərkəzi və Ağ Şəhər kimi görməli yerlər barədə məlumatlandırılıblar. Tarixi və müasir memarlıq nümunələrinin bir araya gətirildiyi bu təqdimat Bakının unikal şəhər mənzərəsini canlı şəkildə videoçarx vasitəsilə nümayiş etdirib.

Tədbirin əsas məqamlarından biri Azərbaycanın zəngin şərabçılıq mədəniyyətinin qeyd edilməsi olub. Qonaqlar "AzGranata" Şərab Zavodu tərəfindən təqdim edilən yerli şərabların dadına baxmaq imkanı əldə ediblər. Təqdim olunan şərablar arasında "Bayanşira" və "Mədrəsə" kimi yerli növlər, eləcə də "Saperavi" və "Sauvignon Blanc" kimi beynəlxalq



sevimlilər yer alıb. Şərab dequstasiyası Azərbaycan şərablarının keyfiyyətini və müxtəlifliyini vurğulamaqla yanaşı, iştirakçılar üçün unudulmaz bir mədəni təcrübə olub.

Təqdimat və şərab dequstasiyasından əlavə, tədbirdə Azərbaycan rəqsləri nümayiş etdirilib və mədəniyyət proqramına dinamik bir element əlavə olunub. İştirakçılara həmçinin təqdimatçılarla əlaqə yaratmaq, suallar vermək və Azərbaycana səfərlər planlaşdırmaq üçün imkanlar yaradılıb.

Bu tədbir, Azərbaycan və Macarıstan arasında mədəni əlaqələrin gücləndirilməsi istiqamətində uğurlu bir addım olaraq qeyd edilib və macar auditoriyasına Azərbaycanın zəngin mədəni irsi və müasir təklifləri barədə daha dərin bir anlayış qazandırıb.

# "Yarımgilə" mahnısının erməni ifaçı tərəfindən mənimsənilməsi aradan qaldırılıb

**Azərbaycan bəstəkarı, Əməkdar incəsənət xadimi Cavanşir Quliyevin "Yarımgilə" adlı mahnısının erməni ifaçı Minas Ovanesyan (Mino) tərəfindən mənimsənilməsi aradan qaldırılıb. AZƏRTAC bununla bağlı Əqli Mülkiyyət Agentliyinin yaydığı məlumatı təqdim edir.**

"Mediada məlumat verdiyimiz kimi, musiqisi Azərbaycan bəstəkarı, Əməkdar incəsənət xadimi Cavanşir Quliyevə məxsus, sözləri bayatılardan ibarət olan "Yarımgilə" mahnısının sözləri erməni ifaçı Minas Ovanesyan (Mino) tərəfindən dəyişdirilərək "Xrovel e im yare" adı ilə ifa edilib və "Youtube" platformasında yerləşdirilib.

Bununla əlaqədar Əqli Mülkiyyət Agentliyi avqustun 2-də geniş məlumat yayıb və bu halın aradan qaldırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə başlayıb.

Bəstəkarın rəqəmsal şəbəkələrdə əmlak hüquqlarının idarəçiliyini həyata keçirən "Mikpro" MMC cəlb edilməklə Əqli Mülkiyyət Agentliyi tərəfindən həyata keçirilən tədbirlər nəticəsində Cavanşir Quliyevin müəllif hüquqlarının pozulmasına səbəb olan erməni ifaçı Minas Ovanesyanın (Mino) ifa etdiyi "Xrovel e im yare" adlı mahnı "Youtube" platformasında yerləşdirilmiş 5 (beş) səhifədən silinib.

Bununla da "Yarımgilə" adlı mahnının musiqisinin Azərbaycan bəstəkarı, Əməkdar incəsənət xadimi Cavanşir Quliyevə məxsus, sözlərinin bayatılardan ibarət olması və erməni ifaçı Minas Ovanesyanın (Mino) tərəfindən C.Quliyevin müəllif hüquqlarının pozulması "Youtube" rəhbərliyi tərəfindən öz təsdiqini tapıb və bəstəkarın pozulmuş hüquqları bərpa edilib".

# "Azərbaycan hərb tarixi" kitabı çapdan çıxıb

**"Azərbaycan hərb tarixi (ən qədim dövrlərdən XX əsrə qədər)" adlı monoqrafiya işıq üzü görüb.**




AZƏRTAC xəbər verir ki, geniş oxucu üçün nəzərdə tutulan 880 səhifəlik elmi əsər Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutunda hazırlanıb. Monoqrafiyanın müəllifləri Milli Müdafiə Universiteti Hərbi Elmi Tədqiqat İnstitutunun professoru, "Dərbənd" Xeyriyyə İctimai Birliyinin sədri, ehtiyatda olan birinci dərəcəli kapitan, tarix elmləri doktoru, professor Nurulla Əliyev, Heydər Əliyev Mərkəzinin Tədbirlərin təşkili şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Səbuhi Əhmədov və AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun dosenti, tarix üzrə fəlsəfə doktoru Nərminə Əmirbəyovadır.

Kitabda qədim dövrdən XX əsrin əvvəllərinə qədər Azərbaycan ərazisində baş vermiş əsas hərbi-siyasi hadisələr və müharibələr təhlil edilib, həmçinin hərbi-tarixi təfəkkürün yaranması və təkamülü kompleks şəkildə öyrənilib. Həmçinin Azərbaycanda hərb işinin yaranması və inkişafı məsələləri işıqlandırılıb.

Geniş mənbə və ədəbiyyat əsasında hazırlanan monoqrafiyada Azərbaycanda hərb işinin yaranma tarixi və hərb sənətinin inkişaf xüsusiyyətləri, hərbi sistem və döyüş əməliyyatları taktikası, istehkam və müdafiə qurğularının əhəmiyyəti, müxtəlif növ silahların istehsalı, onların hərbi əməliyyatlarda istifadə üsulları və döyüş taktikasına təsiri məsələləri əsərdə mühüm yer tutub.

Müəlliflər tərəfindən təqdim edilən bu monoqrafiyada xronoloji ardıcıllıqla dövrün hərbi-siyasi tarixi əks olunub. Kitaba çoxlu sayda tarixi xarakterli illüstrativ materiallar - dövlətlərin, yürüşlərin xəritələri, döyüş əməliyyatlarının, hərbi təşkilatların yürüş və döyüş düzülüşləri sxemləri, tarixi silahların fotoşəkilləri, batal miniatürləri, o cümlədən torevtika və daşişləmə sənəti nümunələri daxil edilib.

# Ölkənin ən böyük elektrik stansiyası tikilir

**Mingəçevir şəhərində "AzərEnerji" tərəfindən yeni tikilən, ölkənin ən böyük elektrik stansiyası üçün İtaliyadan gəmi vasitəsi ilə daha bir dəst turbin və generator gətirilib.**



Hər birinin çəkisi 300 tondan artıq olan turbin və generator Bakıda ağır tonnajlı kranlarla xüsusi qoşqulu daşınma vasitələrinə yüklənib. Yükün hündürlüyü 6 metr olduğundan Mingəçevirə qədər yol boyu körpülərin altı qazılıb və keçid təmin edilərək yollar bərpa edilib. Ümumi gücü 1880 meqavat olan yeni elektrik stansiyasında yerinə qoyulan avadanlıqların dərhal quraşdırılmasına başlanılıb. Yeni elektrik stansiyasında 4 ədəd turbin və generator olmalıdır ki, onlardan artıq üç dəsti gətirilib və son dəst turbin-generator da yaxın vaxtlarda ölkəyə çatdırılacaq.

"AzərEnerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, İtaliyadan yola çıxan sonuncu turbin, generator gəmi ilə gətirilir, gələn ay Bakıya çatdırılacaq. Çindən gələn 8 ədəd transformator isə artıq Bakıya çatdırılıb. Bundan başqa util qazanın hissələrindən ibarət sonuncu gəmi bir neçə günə Poti limanına çatacaq və avadanlıqlar Mingəçevirə daşınacaq.

Qeyd edək ki, gücünə görə ölkənin ən böyük elektrik stansiyası olacaq bu enerji obyekti son illərdə sürətlə yaradılan bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyasının əks təsirlərinin balanslaşdırılması, enerji istehsalında təbii qaza qənaət edilməsi, iqlim dəyişiklikləri ilə bağlı baş verən kataklizmlərin qarşısının alınması, ətraf mühitin qorunması baxımından xüsusi önəm daşıyır.

Belə ki, "AzərEnerji" tərəfindən yeni tikilən stansiyanın şərti yanacaq sərfiyyatı "Azərbaycan" İES-in digər blokları ilə müqayisədə hər kilovat saat üçün 120 qram azalmaqla 225 qram təşkil edəcək ki, bununla da illik 1,2 milyard kubmetr təbii qaza qənaət ediləcək, eyni zamanda ətraf mühitə atılan karbon qazının miqdarı 2 milyon ton azalacaq. Onu da nəzərə çatdıraq ki, BMT-nin İqlim Dəyişikliyi ilə bağlı əsas müddəaları arasında "yaşıl enerji" və enerjinin effektivliyi öndə gəlir. Yeni tikilən stansiya da bu cəhətdən olduqca əhəmiyyətlidir.

# Kim Çen İn kamikadze dronların istehsalını artırmağı tələb edir

**Koreya Xalq Demokratik Respublikasının Milli Müdafiə Akademiyasının Dron İnstitutu Şimali Koreya lideri Kim Çen İnin şəxsən müşahidə etdiyi kamikadze dronların sınaqlarını keçirib. Koreya Mərkəzi Xəbər Agentliyinin (KCNA) avqustun 26-da yaydığı məlumata görə, sınaqlar uğurla keçib - pilotsuz təyyarələr verilmiş marşrutlar üzrə uçub, hədəfləri tapıb və onları məhv ediblər.**



Kim Çen İn kamikadze pilotsuz təyyarələrin istehsalını artırmağa və Şimali Koreya ordusunu taktiki piyada və xüsusi əməliyyat bölmələrində istifadə etmək üçün bu tip silahlarla tez bir zamanda təchiz etməyə çağırıb. Xüsusilə, KCNA-nın rəsmi məlumatında sualtı pilotsuz uçan aparatları, hücum pilotsuz uçan aparatları və kəşfiyyat aparatları qeyd edilir.

Kim Çen İnin sözlərinə görə, taktiki piyada bölmələrinin ehtiyacları üçün həm strateji kəşfiyyat, həm də çoxməqsədli hücum pilotsuz təyyarələrinin, eləcə də kamikadze pilotsuz təyyarələrin istehsalını artırmaq lazımdır. Şimali Koreya lideri həmçinin dronların hazırlanmasında süni intellekt texnologiyasının tətbiqini vacib bilib.

KCNA-nın məlumatına görə, sınaqdan keçirilmiş pilotsuz təyyarələr müxtəlif məsafələrdə quruda və dənizdə istənilən hədəfi vurmaq üçün nəzərdə tutulub.

Xatırladaq ki, Şimali Koreya daha əvvəl sualtı nüvə pilotsuz uçan aparatının sınaqlarını elan etmişdi. Belə ki, 2024-cü ilin əvvəlində Pxenyan nüvə başlığı ilə təchiz oluna bilən "Heil-5-23" sualtı dron sistemini sınaqdan keçirdiyini açıqlamışdı. KXDR Müdafiə Nazirliyi bunun ABŞ, Yaponiya və Cənubi Koreyanın Yapon dənizində keçirdiyi üç günlük hərbi təlimlərə cavab olduğunu bildirmişdi.

Qeyd edək ki, "Heil-5-23" sisteminin mövcudluğunun müstəqil təsdiqi yoxdur. Pxenyan bildirir ki, sualtı pilotsuz uçan aparat ilk dəfə ötən ilin martında sınaqdan keçirilib və düşmən gəmilərinə, habelə mühüm limanlara qəfil hücumlar etmək iqtidarındadır.

Bu arada, Şimali Koreya Cənubi Koreyaya zibil balonları göndərməkdə davam edir. Məlumata əsasən, raketlərin və pilotsuz təyyarələrin sınaqları ilə eyni vaxtda KXDR Cənubi Koreyaya içərisində zibil olan şarlar buraxır.

Bildirilir ki, may ayından bəri Pxenyan Cənubi Koreyaya zibil dolu iki mindən çox şar göndərib. Şarlardan biri ötən ayın sonunda Cənubi Koreya prezidentinin ofisinin ərazisinə düşüb.

KXDR hakimiyyəti bildirib ki, onların cənub qonşularına göndərdikləri "səmimi hədiyyələr" sərhəd bölgələrində Kim Çen İn hökumətini tənqid edən "təbliğat materiallarının tez-tez səpilməsinə cavabdır".

Son məlumata görə, Şimali Koreya tarixi müttəfiqi Çindən narazılıq nümayiş etdirərək Pekinin iki ölkə sərhədi yaxınlığında telekommunikasiya sistemləri və infrastruktur qurmaq planlarına qarşı çıxıb. KXDR Beynəlxalq Tezliklərin İdarə Olunması Təşkilatına rəsmi məktub göndərməklə etirazını açıq şəkildə ifadə edib.

"Kyodo" xəbər agentliyinin əldə etdiyi e-poçtda Şimali Koreya səlahiyyətliləri Çinlə əvvəlcədən məsləhətləşmənin olmamasından şikayətlənib.

Ötən ilin iyun ayında Cenevrədə yerləşən təşkilat mövcud yerüstü ötürmə şəbəkələri haqqında müxtəlif ölkələri məlumatlandırıb. Çin öz ərazisində müxtəlif növ yerüstü yayım, o cümlədən FM radio yayımı üçün 191 stansiya quraşdırmağı planlaşdırır.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az



OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*
*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Paytaxtda arabir güclənən şimal-qərb küləyi əsəcək



Azərbaycanda avqustun 27-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 20-24°, gündüz 28-33° isti olacaq. Atmosfer təzyiqi 757 millimetr civə sütunundan 760 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 65-75, gündüz 40-50 faiz təşkil edəcək.

Avqustun 27-də Abşeron çimərliklərində arabir güclənən şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh və Zuğulbada 25-26° isti, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil və Şıxda 26-27° isti olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə zəif duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 33-38° isti, dağlarda gecə 11-16°, gündüz 20-25° isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 19-24°, gündüz 33-38° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 20-25°, bəzi yerlərdə 28-32° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 20-25°, bəzi yerlərdə 30-33° isti olacağı bildirilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 19-23°, gündüz 32-37° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 30-35° isti, dağlarda gecə 15-20°, gündüz 23-28° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Ağdaş, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək, gündüz arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 33-38° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-23°, gündüz 31-36° isti, dağlarda gecə 16-18°, gündüz 24-27° isti olacağı proqnozlaşdırılır.


"QLOBAL-SF" MMC-nin Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal yaşayış məntəqəsi Ə.Əhmədov ünvanında inşa edilən çoxmərtəbəli yaşayış binalarında mənzil, qeyri-yaşayış və qaraj alan sakinlərin nəzərinə!

"QLOBAL-SF" MMC-nin təsisçiləri dəyişdirildiyi səbəbindən MMC-nin binalarında mənzil, qeyri-yaşayış və qaraj alan sakinlərin siyahıları dəqiqləşdirilir. Bu səbəbdən bütün sakinlərə 2 ay müddətinə MMC-nin ofisinə müraciət etmələri xahiş olunur.

"QLOBAL-SF" MMC-nin direktoru Elşən Qafar oğlu Tağıyev
Telefon: +99450 201 02 21

*"QLOBAL-SF" MMC*


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Tarverdi Əliyevə qardaşı
**GÜLVERDİ ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Memarlar İttifaqının İdarə Heyəti, Azərbaycan Respublikası Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə görkəmli inşaatçı, Əməkdar mühəndis, "Şöhrət" ordenli
**LİTVİN İBİŞ OĞLU ABBASOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbin 1980-ci il buraxılışı 10a sinfinin məzunları sinif yoldaşları İlqar Abdullayevə əzizi
**VİDADİ FEHRUZ OĞLU SƏDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı Ağalar Vəliyev "Azərkəndtikinti" Açıq Səhmdar Cəmiyyətinin sədri, keçmiş millət vəkili, respublikanın Əməkdar mühəndisi, Prezident təqaüdçüsü və "Şöhrət" ordenli
**LİTVİN İBİŞ OĞLU ABBASOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin katibliyinin rəisinin müavini Mehdi Dadaşova dayısı
**AYDIN SÜLEYMANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3991
Sifariş 1916

Qiyməti 60 qəpik